Azərbaycan Respublikası
Əqli Mülkiyyət Agentliyi

COPAT

# Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin 2020-ci ilin yekunları üzrə görülmüş işlər barədə

# HESABATI

# Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin 2020-ci ilin yekunları üzrə görülmüş işlər barədə HESABATI

2020-ci il Azərbaycan tarixinə şanlı zəfər ili kimi daxil olmuşdur. Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu Ermənistanın işğalçı ordusunu darmadağın edərək işğal altındakı Dağlıq Qarabağı və ətrafındakı yeddi rayonu azad etməklə ölkəmizin ərazi bütövlüyünü bərpa etmiş və Ermənistanı kapitulyasiya sənədini imzalamağa məcbur etmişdir. Xalq və iqtidar birliyinin nümayişinə çevrilən Vətən müharibəsində qazanılmış tarixi parlaq qələbə Azərbaycan xalqına sonsuz sevinc bəxş etmiş, insanlarımızın qürurunu, vüqarını zirvələrə ucaltmışdır. Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazanılmış Zəfər ƏM sahəsinin işçilərinin əzmkarlığının və iş göstəricilərinin daha da artmasına təkan vermiş, ƏM sahəsinin işçiləri ölkə başçısının başlatdığı bütün təşəbbüslərə böyük həvəslə qoşulmuşlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində 2020-ci ildə görülən davamlı tədbirlər nəticəsində bütün sahələrdə, o cümlədən əqli mülkiyyət (ƏM) sahəsində də əhəmiyyətli dəyişikliklər baş vermişdir. Cəmiyyətin obyektiv tələbatından doğan əqli mülkiyyət fenomeninin iqtisadiyyata yatırılan investisiyaların keyfiyyət və kəmiyyətinə, onların məhz yaradıcılığa və yenilikçiliyə cəlb edilməsi və intellektual məhsulların yaradılmasına, ümumən əqli fəaliyyətin stimullaşdırılmasına və iqtisadi yüksəlişə verdiyi töhfələrə görə rolu artmaqda davam edir.

Hesabat ilində Əqli Mülkiyyət Agentliyi ötən dövr ərzində ölkəmizdə bu sistemin özünəməxsus modelinin formalaşdırdığı potensiala əsaslanaraq, öz fəaliyyətini ardıcıl  davam etdirmiş və sahənin dayanıqlı inkişafını təmin etmişdir. Bu modeli səciyyələndirən əsas xüsusiyyətlər Ümummilli lider Heydər Əliyevin zəkasının məhsulu olan əqli mülkiyyət sistemi konsepsiyası, Prezident İlham Əliyev tərəfindən onun inkişafı strategiyası, məntiqi davamı kimi – nəzəri və praktiki aspektləri vahidliyə gətirən işlək sahəvi milli qanunverici bazanın formalaşdırılması, oturuşmuş və düşünülmüş islahatlar çərçivəsində inkişaf etdirilən və sahə üzrə optimal idarəetmə strukturunun yaradılması, dərin biliklərə əsaslanan peşəkar idarə olunmadır.

İl ərzində bəşəriyyətin bəlasına çevrilən Koronavirus "COVİD-19" pandemiyasının yaratdığı problemlərə və çətinliklərə baxmayaraq, Əqli Mülkiyyət Agentliyi tərəfindən ƏMH-nın qorunması və təminatı sahəsində normativ-hüquqi və informasiya bazasının təkmilləşdirilməsi üzrə layihələrin hazırlanması, mövcud qanunvericiliyə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələrə uyğun olaraq ƏM obyektlərinin dövlət qeydiyyatı və reyestrinin aparılması, müvafiq mühafizə sənədlərinin verilməsi və qüvvədə saxlanılması, ƏM hüquqlarının digər şəxslərə verilməsinə dair müqavilələrin, istifadə hüququnun verilməsi ilə bağlı lisenziya müqavilələrinin qeydiyyatına dair tədbirlər həyata keçirilmişdir.

"Patentlərə, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sistemi istifadəyə verilmiş və bununla sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində "vahid pəncərə" prinsipi tətbiq edilmiş, açıqlıq və şəffaflıq təmin edilmiş, göstərilən dövlət xidmətlərinin səviyyəsi əvvəlki illərlə müqayisədə yüksəlmiş, ixtira və patent fəallığının artırılması istiqamətində tədbirlər gücləndi-

rilmişdir. Sistem Hökumət Ödəniş Portalına inteqrasiya olunmuşdur. Bu sistemlə yanaşı, yeni "Çağrı mərkəzi"nin yaradılması da sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı sahəsində fəaliyyətin səmərəliliyinin və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılmasında mühüm rol oynayır. Bununla yanaşı, rəqəmli hüquqların idarə edilməsi, mədəni irsin milli elektron məlumat bazasının yaradılması və digər xidmətlərin göstərilməsi üzrə tədbirlər davam etdirilmişdir.

Azərbaycanda ƏM sisteminin avtomatlaşdırılması layihəsi üzrə tətbiq olunan IPOA (Intellectual Property of Azerbaijan) sistemindən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) təqdim etdiyi IPAS (Industrial Property Automation System) sisteminə əmtəə nişanları üzrə miqrasiya prosesi yekunlaşmışdır.

Agentlikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təqdim etdiyi Elektron Sənəd Dövriyyəsi Sisteminə (ESDS) qoşulmaq üçün ilk dövlət qurumları sırasında hazırlıq işləri başa çatdırılmış, əməkdaşlara ESDS ilə bağlı təlimlər keçilmişdir.

Universitetlərdə, elmi-tədqiqat institutlarında və KOS subyektlərində İP ofislərin yaradılması və mövcud ofislərin texnologiyaların kommersiyalaşması və transferi mərkəzlərinə çevrilməsi, Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin (TKTM) və Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzinin (TİDM), o cümlədən Agentliyin nəzdində yaradılması və fəaliyyətlərinin təşkili üzrə işlər görülmüşdür.

Agentliyin əsas vəzifələrindən biri kimi onun tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının fəaliyyətinin müasir çağırışlar nəzərə alınmaqla yenidən qurulması istiqamətində zəruri işlər davam etdirilmiş, "COVİD-19" pandemiyasının yaratdığı çətinliklər nəzərə alınmaqla

əhaliyə onlayn xidmət təşkil edilmiş, işçilərin sosial və iş şəraitləri yaxşılaşdırılmış, Kitabxananın infrastrukturu və maddi-texniki bazası təkmilləşdirilmiş, yeni saytı istifadəyə verilmişdir.

Qeyd etmək lazımdır ki, dünyada yayılmış COVİD-19 koronavirus pandemiyası ilə mübarizədə əhalinin sağlamlığının qorunması ölkəmizdə ali məqsəd kimi qəbul edilərək, koronavirus infeksiyasının yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Respublikamızda müəyyən edilmiş xüsusi karantin rejimi nəzərə alınmaqla, Agentlik bir çox xidmətlərini onlayn rejimdə göstərmişdir. O cümlədən, əqli mülkiyyət hüquqlarının qorunması baxımından xüsusi əhəmiyyət kəsb edən müəlliflik hüququ obyektlərinin qeydiyyatı ilə bağlı ərizələrin qəbulu və digər xidmətlər Elektron Hökumət portalı, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı ilə bağlı iddia sənədlərinin qəbulu isə elektron poçt vasitəsilə həyata keçirilmişdir.

Əqli Mülkiyyət Agentliyinin 2020-ci ildəki fəaliyyətinin yekunlarına aid bu hesabatda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iqtisadiyyat və idarəçilik sahələrində islahatların aparılması ilə bağlı fərman və sərəncamlarından, müvafiq Dövlət Proqramlarından, icrası Agentlik tərəfindən həyata keçirilən 7 qanundan (“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında”, “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında”, “Məlumat toplularının hüquqi qorunması haqqında”, “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında”, “Patent haqqında” və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Qanunlar) və digər müvafiq sənədlərdən irəli gələn aidiyyəti vəzifələrin yerinə yetirilməsi üzrə görülmüş işlər və əhaliyə göstərilən dövlət xidmətlərinin səviyyəsinin yüksəldilməsi

istiqamətlərində fəaliyyət barədə məlumatlar öz əksini tapmışdır.

**1. Əqli mülkiyyət və iqtisadi inkişafla bağlı dövlət başçısı İlham Əliyevin iqtisadiyyat sahəsində islahatların aparılmasına dair fərman və sərəncamlarndan irəli gələn aidiyyəti vəzifələrin icrası.** Əqli Mülkiyyət Agentliyi əqli mülkiyyət sahəsində dövlət siyasətini həyata keçirən orqan olaraq, özünün əsas məqsədini Prezident İlham Əliyevin geniş iqtisadi islahatlarının reallaşdırılmasına xidmət etməkdə görür, gələcəyə yönəlmiş strategiyasını və onun həyata keçirilməsi üçün illik Tədbirlər planını müəyyənləşdirərkən ölkə rəhbərliyinin qəbul etdiyi konkret proqram və sənədləri rəhbər tutur. Ölkəmizdə aparılan iqtisadi islahatlar çərçivəsində elmi-tədqiqat nəticələri olan yeni texnologiyaların kommersiyalaşdırılması və tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi və həyata keçirilməsi iqtisadi inkişafın sürətləndirilməsində vacib rol oynayır və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"ndan, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"ndan, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 02 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının

həyata keçirilməsinə dair Tədbirlər Planı”ndan, Azərbaycan Respublikası Prezidentinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanından irəli gələn aidiyyəti vəzifələrin yerinə yetirilməsi Agentliyin başlıca fəaliyyət istiqaməti olmuşdur.

Hesabat dövründə qeyd edilən proqram xarakterli sənədlərin aidiyyəti bəndlərinin icrası çərçivəsində emi-tədqiqat nəticələri olan yeni texnologiyaların iqtisadiyyatda tətbiqi və iqtisadi səmərəsinin artırılması, əqli fəaliyyət nəticələrinin (ƏFN-nin) kommersiyalaşmasının təmin olunması, milli brendlərin təbliği və innovasiyaların cəlb edilməsi üzrə görülən işlərin dövlət başçısının islahatlar siyasətinin tələblərinə uyğunlaşdırılması üçün Agentliyin fəaliyyəti bu siyasətlə müəyyən edilən aidiyyəti vəzifələrin icrasına xidmət etməyə yönəldilmişdir.

O cümlədən, “Made in Azerbaijan” brendinin təşviqi, loqotiplərin müəlliflik hüququnun obyekti kimi qeydiyyata alınması istiqamətlərində fəaliyyət davam etdirilmiş, eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamından irəli gələn aidiyyəti vəzifələr çərçvəsində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Texnologiya və innovasiyalar” işçi qrupuna əqli mülkiyyətə aid indikatorlar üzrə ölkəmizin beynəlxalq reytinqlərinin yaxşılaşdırılması üçün təkliflər hazırlanaraq təqdim edilmişdir.

Həmçinin “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1670-VQD nömrəli Qanununun tətbiqi, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin

2018-ci il 4 iyun tarixli 107 nömrəli Fərmanında dəyişiklik edilməsi və Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 noyabr tarixli 861 nömrəli Fərmanının icrası çərçivəsində Ələt azad iqtisadi zonasında əqli mülkiyyət hüquqları sahəsində münasibətlərin "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənməsi ilə bağlı Əqli Mülkiyyət Agentliyinin inzibati idarəçiliyi altında olan qanunlara, onların layihələrinin hazırlanmasında təşkilatın iştirakı ilə müvafiq dəyişikliklər edilmişdir.

Bununla yanaşı, Ölkə başçısının 2017-ci il 02 iyun tarixli 2947 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər planının 10.1.4.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə, Əqli Mülkiyyət Agentliyi tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Texnologiyaların kommersiyalaşdırılması və transferi Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının və "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Texnologiyaların kommersiyalaşdırılması və transferi Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarının layihələri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 28 sentyabr tarixli 5395aid (2019) nömrəli dərkənarına əsasən, aidiyyəti orqanlarla razılaşdırılaraq 2020-ci il 28 dekabr tarixli 200101200704 nömrəli məktubla Nazirlər Kabinetinə göndərilmişdir.

Mərkəzin yaradılmasında məqsəd, elm və sənaye arasında bağlantı, qarşılıqlı sifariş və təklif münasibətlərinin yaradılması, ixtiraçılıq fəaliyyətinin keyfiyyətcə artırılması və tətbiqi xarakter daşıması üçün texnologiyaların transferinin və əqli fəaliyyət nəticələrinin kommersiyalaş-

dırılmasının həyata keçirilməsi, innovativ inkişafın, o cümlədən startap layihələrinin dəstəklənməsinə xidmət edən, elmi tədqiqatların nəticələrinin kommersiya və qeyri-kommersiya məqsədilə istifadəsi üçün transferinə, həmçinin bu nəticələrdən gəlir əldə etməyə yönəldilməsi, müştərilərə texnologiyaların və layihələrin hədəf bazarlarına çıxarılması xidmətlərinin göstərilməsi sahəsində fəaliyyətin əlaqələndirilməsidir.

Mərkəzin fəaliyyəti Agentliyin əldə etdiyi vəsait hesabına həyata keçiriləcəkdir.

Bu istiaqmətlərdə aparılan işlərə dəstək verilməsi məqsədilə Agentliyin təşkilatçılığı ilə bir sıra tədbirlər təşkil edilmiş, Agentliyin nümayəndələri ənənəvi, onlayn və hibrid formatda 18 milli və beynəlxalq seminar və konfransda iştirak etmişlər.

Bu tədbirlərdən aşağıdakıları qeyd edə bilərik:

- 30 yanvar tarixində Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümovun yanında keçirilən müşavirədə Agentliyin İdarə heyətinin sədrinin “Azərbaycanın texnoloji profili və dünyanın qabaqcıl texnoloji sahələri (patent analitikası)” adlı təqdimatı olmuşdur.

- 18 fevral tarixində Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri  Şahmar Mövsümovun yanında keçirilən “İnnovasiyanın yaranması, tətbiqi və gəlir gətirməsi üçün nə lazımdır?” mövzusunda iclasda Agentliyin İdarə Heyətinin sədri prezentasiya ilə çıxış etmiş və kiçik və orta müəssisələrin innovativliyinin tədqiq edilməsi üçün Agentlikdə hazırlanmış və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOB) tərəfindən dəstəklənən

Kiçik və Orta Müəssisələrin (KOM) İnnovasiya Sorğusu Anketi təqdim edilmişdir. Bu tədqiqatın məqsədi aşağıdakılardan ibarətdir:

KOM-ların innovativ inkişaf istiqamətlərinin, innovativ modernləşməsinin və ya onların olmamasının səbəblərinin müəyyənləşdirməsi;

İnnovasiya üçün vəsait mənbələrinin və innovativ fəaliyyəti üçün risk faktlarının öyrənilməsi;

İnnovasiya fəaliyyətdəki maneələrin və bunlara səbəb olan daxili və xarici faktorların müəyyənləşdirilməsi;

İnnovasiya fəaliyyətinə və infrastruktur amillərinə dəstək növlərinin və subyektlərinin qiymətləndirilməsi və s.

- 27 fevral tarixində Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Universitetlərdə akademik tədqiqatların kommersiyalaşması: Beynəlxalq reallıqlar və yeni çağırışlar" mövzusunda keçirilmiş konfransda Agentliyin İdarə Heyətinin sədri "Əqli mülkiyyət və elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması" mövzusunda məruzə ilə çıxış edib. Mövzunun aktuallığından danışan məruzəçi Dövlət başçısı İlham Əliyevin dəstəyi nəticəsində Azərbaycanda əqli mülkiyyət sahəsində zəngin milli qanunvericilik bazasının formalaşdığını bildirib. Təqdimatda milli innovasiya sistemlərinin modelləri, bilik iqtisadiyyatına aid olan sahələrin ÜDM-da payı, ixtiralarla bağlı göstəricilərin dinamikası açıqlanıb. Eyni zamanda kommersiyalaşma ilə bağlı ali məktəblərin qarşısında duran vəzifələrdən söz açılıb. Ölkədə innovasiya potensialının nəticələrdən daha yüksək olduğu diqqətə çatdırılaraq, imkanlardan səmərəli istifadənin vacibliyi vurğulanıb, elmi fəaliyyətin müasir modelinin 3.0 universitet səviyyəsinə qaldırılmasında önəmli məqamlar qeyd edilib. Ölkədə biliklərə əsaslanan cəmiyyətin formalaşdırılmasının və insan kapitalına investisiyaların qoyuluşunun dövlətin strateji məqsədlərin-

dən olduğu, universitetlərlə birgə əməkdaşlığın bu sahəyə böyük töhfələr verəcəyi vurğulanıb.

- 29 iyun tarixində Ümumdünya Əqli Mülkiyyət Təşkilatı və Avrasiya Patent Təşkilatının təşkilatçılığı ilə Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrində əqli mülkiyyətin kommersiyalaşması və innovasiya mərkəzlərinin problemlərinə həsr olunmuş regional vebinarda Agentliyin İdarə Heyətinin sədri reqlament nəzərə alınmaqla praktiki fəaliyyətlə qarşılıqlı bağlı olan müasir nəzəri yanaşmaların elmi təhlilinə əsaslanan texnologiyaların kommersiyalaşma problemlərinə dair baxışlarını, yaradıcılıq və ixtiraların kommersiyalaşdırılması vasitəsilə əqli mülkiyyətin sinergetik effektinin təmin edilməsi üzrə özünəməxsus "yol xəritəsi" olan platformanı tezislər formasında iştirakçılara təqdim etmişdir.

Bunlarla yanaşı, il ərzində ƏFN olan yeni texnologiyaların kommersiyalaşması, bu sahədə mərkəzlərin yaradılması, innovasiyalı fəaliyyətin təşfiq edilməsi üzrə fəaliyyətlərə geniş yer verilmiş, eyni zamanda bu sahədə biliklərin artırılması məqsədilə müxtəlif tədbirlərdə "Azərbaycanın texnoloji profili və dünyanın qabaqcıl texnoloji sahələri (patent analitikası)", "Что нужно, чтобы инновации рождались, внедрялись и приносили доход? (экспертные оценки и материалы социологических исследований МСП)" (rus dilndə), "Əqli mülkiyyət və elmi-tədqiqat işlərinin kommersiyalaşması", "Əqli mülkiyyət müasir mərhələdə (hüquqların qorunması və təminatı)", "Azərbaycanda ixtiraçılıq və patent analitikası" və "Azərbaycanda sənaye nümunələrinin, coğrafi göstəricilərin və əmtəə nişanlarının analitik icmalı" (Azərbaycan və rus dillərində) mövzularında təqdimatlar edilmiş, onların əsasında kitabçalar çap edilmiş, həmçinin innovativ inkişaf, texnologiyaların kommersiyalaşlması və transferi, bu sahədə mərkəzlərin yaradılması ilə bağlı ötən il nəşr edilmiş bir

sıra kitablar təkrar çap edilərək maraqlı şəxslərə paylanmışdır.

Son illər bütün sahələrdə, o cümlədən ƏM sahəsində həyata keçirilən islahatlar ölkəmizin beynəlxalq reytinqlərdə mövqelərini daha möhkəmləndirmiş və bu uğurlar nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır.

Belə ki, Dünya İqtisadi Forumunun 2019-cu il üçün dərc etdiyi Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə Hesabatına görə (2020-ci ilə görə Hesabat hələlik dərc olunmamışdır), Azərbaycan 141 ölkə arasında "mülkiyyət hüquqlarının qorunması" üzrə 37-ci və "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 30-cu yeri tutmuşdur. Bu göstərici üzrə ölkəmiz MDB dövlətləri arasında 1-ci yeri tutur və bir çox Avropa ölkələrini qabaqlayır.

**Qlobal Rəqabətlilik Hesabatın**
**"Əqli mülkiyyətin qorunması" indikatoru**




Azərbaycanın bir sıra sahələr üzrə nailiyyətləri daha bir Hesabatda öz əksini tapmışdır. 131 ölkəni əhatə edən və Kornell Universitetinin (ABŞ), İNSEAD Biznes məktəbinin (Fransa), Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə nəşri olan Qlobal İnnovasiya İndeksi (Qİİ) -

2020-ci ilin reytinq Hesabatı innovasiya fəaliyyətinin potensialı, məhsuldarlığı və çərçivə şərtlərini əhatə edən 80 indikator əsasında tərtib olunmuşdur. Burada qanuvericilik, elm və təhsildən patentlərə və digər əqli mülkiyyət obyektlərinə iddia sənədlərinin sayınadək – geniş məlumatlar spektrini ehtiva edən indikatorlar təhlil olunur. Qİİ-nin dərc olunmasında əsas məqsəd innovasiya fəaliyyətinin stimullaşdırılması mexanizmlərinin qiymətləndirilməsi üçün imkanların yaradılmasıdır. Azərbaycan 2020-ci ildə Qlobal İnnovasiya İndeksi (Qİİ) üzrə reytinqini də yaxşılaşdıraraq “İnnovasiya nəticələri” subindeksində “Kreativ fəaliyyətin nəticələri” bloku üzrə əvvəlki ildəki 84-cü yerlə müqayisədə 19 pillə irəliləyərk 65-ci yerə yüksəlib. Bu subindeksdə əsasən ƏM obyektləri ilə müəyyənləşən “Qeyri-maddi aktivlər” göstəricisi üzrə 2019-cu ildəki nəticəni (76-cı yer) 20 pillə yaxşılaşdıraraq 56-cı yeri tutur. Bu inteqral göstəricidə əqli fəaliyyət göstəriciləri, məsələn, sənaye nümunələri göstəriciləri üzrə Azərbaycan reytinqdə mövqeyini 18 pillə, "Bilik və texnoloji nəticələr" blokunda "Biliklərin yaradılması" inteqral göstəricisinə görə isə 11 pillə yaxşılaşdırıb. Ölkəmiz "Rezidentlərin ixtira müraciətləri" (64-cü yer) və “Rezidentlərin faydalı model müraciətləri” (50-ci yer) kimi ƏM göstəriciləri üzrə də kifayət qədər yüksək sırada yer alıb. Bu nailiyyətlər cənab Prezidentin apardığı islahatların ikinci dalğasının nəticələridir.

**Azərbaycan üzrə**
**Qlobal İnnovasiyalar İndeksi hesabatı**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| Global İnnovation İndex | | | | | | |
| *- rank* | 93 | 85 | 82 | 82 | 84 | 82 |
| *- value* | 30,1 | 29,6 | 30,6 | 30,20 | 30,21 | 27,2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 5.2.5 Patent ailələri<br>*- rank*<br>*- value* | <br>91<br>0,0 | <br>78<br>0,0 | <br>74<br>0,1 | <br>76<br>0,0 | <br>79<br>0,0 | <br>93<br>0,0 |
| 6.1.1. Rezidentlərin patent müraciətləri<br>*- rank*<br>*- value* | 61<br>1,0 | 60<br>1,2 | 59<br>1,3 | 60<br>1,1 | 60<br>1,1 | 64<br>1,0 |
| 6.1.2. Rezidentlərin PCT patent müraciətləri<br>*- rank*<br>*- value* | 99<br>0,0 | 94<br>0,0 | 99<br>0,0 | 72<br>0,1 | 67<br>0,1 | 74<br>0,1 |
| 6.1.3. Rezidentlərin faydalı model müraciətləri<br>*- rank*<br>*- value* | 57<br>0,1 | 46<br>0,1 | 46<br>0,1 | 53<br>0,1 | 53<br>0,1 | 50<br>0,2 |
| 7.1.1. Rezidentlərin əmtəə nişanlarının müraciətləri<br>*- rank*<br>*- value* | 77<br>22,4 | 76<br>22,2 | 91<br>16,5 | 91<br>17,0 | 91<br>16,7 | 91<br>21,2 |
| 7.1.2 .Qlobal brend dəyəri, ilk 5000, % ÜDM<br>*- rank*<br>*- value* | | | | | | n/a<br>n/a |
| 7.1.3.** Rezidentlə-rin sənaye nümunə-lərin müraciətləri<br>*- rank*<br>*- value* | 49*<br>0,2* | 87<br>0,3 | 107<br>0,1 | 110<br>0,1 | 110<br>0,1 | 92<br>0,3 |

* 2015-ci ildə 7.1.2 Madrid əmtəə nişanlarının sahibləri
** 2015-ci ildən 2019-cu ilədək göstərici 7.1.2 sıra nömrəsi ilə göstərilmişdir

Bununla yanaşı, ixtira, faydalı model, sənaye nümunələri, əmtəə nişanları, coğrafi göstəricilər üzrə məlumat

bazasının təhlili aparılmış, arayışlar, bir sıra cədvəl və qrafiklər hazırlanmış, Azərbaycan və rus dillərində dörd broşür təqdim edilmişdir: “Azərbaycanda ixtiraçılıq və patent analitikası”; “Azərbaycanda sənaye nümunələrinin, coğrafi göstəricilərin və əmtəə nişanlarının analitik icmalı”; “Изобретательство и патентная аналитика в Азербайджане”; “Аналитический обзор промышленных образцов, географических указаний и товарных знаков в Азербайджане”.

**2. Qanunvericilik və normativ hüquqi bazanın təkmilləşdirilməsi.** Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində Agentliyin fəaliyyəti ölkəmizdə bütövlükdə əqli mülkiyyət sahəsində fəallığın artması və əhaliyə göstərilən xidmət səviyyəsinin yüksəlməsində əhəmiyyətli təsirə malikdir. 2020-ci il ərzində Əqli Mülkiyyət Agentliyinin də iştirak etdiyi əqli mülkiyyət qanunvericiliyinin təkmilləşdirilməsi və yeni qəbul olunmuş qanunvericilik aktlarına uyğunlaşdırılması prosesi çərçivəsində aşağıda göstərilən 2 qanun, ölkə başçısının 7 fərmanı, Nazirlər Kabinetinin 3 qərarı və 5 sərəncamı qəbul edilmişdir:

**I. Qanunlar:**

**1.** “1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyasının Sənaye nümunələrinin mühafizəsinə dair” Protokolunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2020-ci il 5 may tarixli 84-VIQ nömrəli Qanunu;

**2.** “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin əqli mülkiyyət obyektlərinə hüquqların qorunması sahəsində gömrük orqanlarının qarşılıqlı fəaliyyəti haqqında” Sazişin təsdiq edilməsi barədə” Azərbaycan Res-

publikasının 2020-ci il 30 sentyabr tarixli 169-VIQ nömrəli Qanunu.

**II. Azərbaycan Respublikası Prezidentinin Fərmanları:**

**1.** "Azərbaycan Respublikası Prezidentinin "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 29 may tarixli 372-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2012-ci il 6 iyul tarixli 670 nömrəli və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2012-ci il 29 may tarixli 373-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2012-ci il 6 iyul tarixli 671 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 20 noyabr tarixli 1182 nömrəli Fərmanı;

**2.** "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 580-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 7 may tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 20 noyabr tarixli 1183 nömrəli Fərmanı;

**3.** "Azərbaycan Respublikası Prezidentinin "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 14 may tarixli 93 nömrəli, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqın-

da” 2009-cu il 21 dekabr tarixli 190 nömrəli, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 822- IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2013-cü il 27 dekabr tarixli 63 nömrəli və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 823-IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2013-cü il 27 dekabr tarixli 64 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 20 noyabr tarixli 1184 nömrəli Fərmanı.

**4.** “Azərbaycan Respublikası Prezidentinin “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi barədə” 2012-ci il 6 iyul tarixli 668 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 iyul tarixli 1085 nömrəli Fərmanı.

**5.** “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 749 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 fevral tarixli 934 nömrəli Fərmanı.

**6.** “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 667 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqın-

da" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 aprel tarixli 1001 nömrəli Fərmanı.

**7.** "Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 15 iyul tarixli 370 nömrəli, "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2002-ci il 29 yanvar tarixli 667 nömrəli, "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2002-ci il 24 avqust tarixli 757 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli, "Taxıl haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 iyul tarixli 370 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" 2008-ci il 22 aprel tarixli 745 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 30 dekabr tarixli 756-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 9 fevral tarixli 49 nömrəli və "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 dekabr tarixli 1198 nömrəli Fərmanı.

**III. Nazirlər Kabinetinin qərarları:**

**1.** "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və

“Hökumət buludu” ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı.

**2.** “Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Bakı şəhəri Sabunçu rayonunun Nardaran qəsəbəsində yerləşən tarixi-mədəniyyət qoruğu haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1992-ci il 3 iyul tarixli 375 nömrəli, “Azərbaycan Respublikasında əlillərin problemləri üzrə kompleks proqramın həyata keçirilməsi haqqında” 1994-cü il 10 may tarixli 185 nömrəli, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı məsələlər haqqında” 1997-ci il 2 may tarixli 38 nömrəli, “Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydalarının təsdiq edilməsi haqqında” 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli, “Azərbaycan Milli Kitabxanasının və Azərbaycan Respublikası Elmi-Sahəvi Kitabxanasının nümunəvi əsasnamələrinin təsdiq edilməsi haqqında” 2000-ci il 6 mart tarixli 30 nömrəli, “Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamənin təsdiq edilməsi haqqında” 2002-ci il 18 aprel tarixli 69 nömrəli və “Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı”nın təsdiq edilməsi barədə” 2004-cü il 5 iyul tarixli 92 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 26 oktyabr tarixli 422 nömrəli Qərarı;

**3.** “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində

mübahisələrə baxan Apellyasiya şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 fevral tarixli 58 nömrəli Qərarı.

**IV. Nazirlər Kabinetinin sərəncamları:**

**1.** "Azərbaycan Respublikası Prezidentinin "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 14 may tarixli 93 nömrəli, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2009-cu il 21 dekabr tarixli 190 nömrəli, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 822- IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 27 dekabr tarixli 63 nömrəli və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli 823-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 27 dekabr tarixli 64 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 20 noyabr tarixli 1184 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin **2020-ci il 30 noyabr** tarixli 651s nömrəli Sərəncamı;

**2.** "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 580-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezi-

dentinin 2008-ci il 7 may tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 20 noyabr tarixli 1183 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 noyabr tarixli 650s nömrəli Sərəncamı;

**3.** “Azərbaycan Respublikası Prezidentinin “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 29 may tarixli 372-IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2012-ci il 6 iyul tarixli 670 nömrəli və “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2012-ci il 29 may tarixli 373-IVQD nömrəli Qanununun tətbiqi haqqında” 2012-ci il 6 iyul tarixli 671 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 20 noyabr tarixli 1182 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 noyabr tarixli 649s nömrəli Sərəncamı;

**4.** “Azərbaycan Respublikası Prezidentinin “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi barədə” 2012-ci il 6 iyul tarixli 668 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 iyul tarixli 1085 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 iyul tarixli 338s nömrəli Sərəncamı;

**5.** “Üzümçülük və şərabçılıq haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 667 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 aprel tarixli 1001 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 aprel tarixli 179s nömrəli Sərəncamı.

Bununla yanaşı, Agentliyin İdarə Heyətinin sədrinin müvafiq əmrləri ilə patent alınması və ixtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatı prosesinin təkmilləşdirilməsinə xidmət edən 2 sənəd təsdiq edilmişdir:

1) “Patentin alınması üçün ərizə nümunələrinin, onların doldurulması və təqdim edilməsi qaydasının, habelə ixtira, faydalı model və sənaye nümunəsinin yaradılması və istifadəsi ilə bağlı müəllif müqaviləsinin və xidməti tapşırıq müqaviləsinin nümunələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin 2020-ci il 01 iyun tarixli 33 nömrəli əmri;

2) “İxtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatına dair dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq və iddia sənədinə daxil olan materialların surətinin verilməsi üçün Ərizə nümunəsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin 2020-ci il 01 iyun tarixli 32 nömrəli əmri;

3) “Əmtəə nişanının qeydiyyata alınması haqqında Qərar”ın nümənəsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin 2020-ci il 17 avqust tarixli 76k nömrəli əmri.

Qanunvericilik və normativ bazanın təkmilləşdirilməsi ölkəmizdə bütövlükdə ƏM sahəsində fəallığın artması-

na və əhaliyə göstərilən xidmət səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsiri olmuşdur.

Bununla yanaşı, "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi ilə bağlı qanun layihələri hazırlanmışdır. Qanun layihələri hazırda mütəxəssislər tərəfindən öyrənilir. Hər iki sənəd layihəsinin növbəti ildə rəy və təkliflərin bildirilməsi üçün aidiyyəti dövlət orqanlarına göndərilməsi nəzərdə tutulur.

**3. Əqli mülkiyyətin kommersiyalaşdırılmasına, texnologiyaların tətbiqinə və innovasiyalara dəstək.** İnnovativ inkişafa və ƏFN olan yeni texnologiyaların tətbiq olunması, texnologiyaların kommersiyalaşdırılması və transferi, KOS-ın iqtisadi rolunun və innovasiya imkanlarının artırılması, texnoloji innovasiyaların stimullaşdırılması istiqamətlərində ölkəmizdə aparılan işlərə dəstək verilməsi məqsədi ilə hesabat ilində aidiyyəti üzrə tədbirlər davam etdirilmiş, bu çərçivədə 2020-cü ilin İş Planına uyğun olaraq 4 istiqamətdə iş aparılmışdır:

**1-ci istiqamət: Azərbaycanda texnoloji bazarın araşdırılması.** Kiçik və orta müəssisələrin innovativ fəaliyyətinin təhlili və qiymətləndirilməsi ilə əlaqədar Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə birlikdə kiçik və orta müəssisələrin innovativ fəaliyyətinin təhlili və qiymətləndirilməsi istiqamətində hazırlıq fəaliyyətləri başa çatdırılmışdır. Əqli Mülkiyyət Agentliyi və Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi arasında Əməkdaşlıq haqqında Memorandum və Fəaliyyət planının layihələri hazırlanmış və qarşı tərəfə göndərilmişdir.

**2-ci istiqamət: Kommersiyalaşdırma mexanizminin təkmilləşdirilməsi məqsədilə metodologiyanın inkişaf etdirilməsi.** Bununla əlaqədar, ötən il hazırlanmış

“Texnologiyaların kommersiyalaşma bələdçisi (tədqiqatçılar üçün)” qısa metodik vəsaitin daha geniş kitab variantının hazırlanması, çapı və yayılması son mərhələsindədir.

**3-cü istiqamət: Ali təhsil və elmi tədqiqat müəssisələrində texnologiyaların transferi və kommersiyalaşma mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər.** Bununla əlaqədar, “Ali təhsil müəssisələrin innovasiya pasportu” layihəsinin icrası davam edir. Universitetlərin hər bir modul üzrə və bütövlükdə integral innovasiya göstəricisinin hesablanmasına aid müvafiq metodologiya hazırlanır. Ali təhsil və elmi tədqiqat müəssisələrinin ƏFN-nin və mövcud innovasiya layihələrinin monitorinqi aparılır. Elm və innovasiya sahəsində aparılan işlərlə bağlı Bakı Mühəndislik Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Sumqayıt Dövlət Universitetinin rektorluğunda və Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutunun rəhbərliyi ilə geniş müzakirələr aparılır. Eyni zamanda yeni texnologiya transferi və kommersiyalaşma mərkəzlərinin yaradılmasına dair fəaliyyətlər davam etdirilir.

Bu çərçivədə ÜƏMT-nın təşəbbüsü və Agentliyin dəstəyi ilə həyata keçirilən T**exnologiyalara və İnnovasiyalara Dəstək Mərkəzlərinin və əlaqəli şəbəkənin yaradılması** üzrə layihənin birinci mərhələsində hazırlanan və innovasiya fəaliyyətinin bütün aspektlərini xarakterizə edən “Ali təhsil müəssisələrinin innovasiya pasportu” layihəsi innovasiya sorğusu kimi Agentliyin müvafiq məktubu əsasında Təhsil Nazirliyi tərəfindən dövlət universitetlərinə göndərilmiş, həmin universitetlərin təqdim etdikləri göstəricilərin təhlili əsasında Agentlik və Təhsil Nazirliyi tərəfindən universitetlərin innovativ inkişafını dəstəkləyən və 3.0 universitet modelinə keçidini sürətləndirən təkliflər müzakirə olunmuşdur.

Növbəti mərhələdə “Azərbaycanda Texnologiya və İnnovasiyalara Dəstək Mərkəzlərinin Yaradılması” üzrə beynəlxalq layihə və bununla bağlı Respublika müsabiqəsinin keçirilməsi barədə elan verilmiş, müsabiqədə iştirak etmək üçün 7 universitetdən, AMEA-nın 1 institutundan və 1 sahə institutundan müraciətlər daxil olmuşdur. Müsabiqəyə təqdim edilən sənədlərə Komissiya tərəfindən baxılmış və dəyərləndirmə 6 əsas meyar üzrə aparılmışdır (Xaricdə təlim, Beynəlxalq patent müraciətləri, Regional patent müraciətləri, Milli patent müraciətləri, Qüvvədə olan milli patentlər, Startapların sayı). COVİD-19 pandemiyasının yaratdığı problemlərlə əlaqədar müsabiqənin nəticələrinin elan edilməsi təxirə salınmışdır və növbəti ildə açıqlanması nəzərdə tutulur.

**4-cü istiqamət: Perspektivli innovasiya layihələrinin və ƏM nəticələrinin təşviqi. Bu istiqamətdə aşağıdakı tədbirlər həyata keçirilmişdir və davam etdirilir:**

4.1. **Perspektivli innovasiya layihələrinin və ƏM nəticələrinin təşviqi.** Bu istiqamətdə Milli patentlər (2010-2020), Avrasiya patentləri və PCT patentlərindən (2013-2020) ibarət 3 alt qrupu əhatə edən perspektivli texnoloji layihələrə dair məlumat bazası yaradılmışdır.

- Bu bazadakı məlumatlar bir neçə altqrupa bölünmüşdür: Universitetlər, AMEA institutları, Sahə institutları, Yerli şirkətlər, Xarici şirkətlər, Fiziki (yerli) şəxslər, Xarici şəxslər. Toplanmış məlumatlar əsasında statistik təhlillər aparılmış (alt qruplar üzrə, qurumlar üzrə) və illər üzrə tendensiyalar müəyyən edilmişdir.

4.2 Milli, Avrasiya və PCT üzrə seçilmiş patentlərin elektron kataloqunun tərtib edilməsi. Kataloq ÜƏMT-nın iqtisadi sahələr üzrə təsnifat sisteminə və Azərbaycanın elm və innovasiyalar sahələrində nailiyyətlərinə əsaslanır. Bu fəaliyyət hazırda davam etdirilir.

4.3. Xarici texnologiya transferi və innovasiya şəbəkələri və qurumları ilə əməkdaşlıq. Bu istiqamətdə keçirilən konfranslar, seminarlar və digər tədbirlərdə xarici mütəxəssislərlə faydalı əməkdaşlıq əlaqələri yaradılmışdır. Bu istiqamətdə işlərin Texnologiya Transferi və Kommersiyalaşma Mərkəzlərinin yaradılmasından sonra daha geniş şəkildə aparılması nəzərdə tutulur.

Bu sahədə işin daha da təkmilləşdirilməsi və həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədi ilə Nazirlər Kabinetinin "Patentin alınması barədə iddia sənədinə aid Tələblər"in təsdiq edilməsi haqqında" 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarının 2-ci hissəsinə və 17 dekabr tarixli 478 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq Qaydası"nın 6-cı hissəsinə əsasən, aşağıda göstərilən sənədlər Agentliyin İdarə Heyətinin sədrinin 2020-ci il 1 iyun tarixli 32 və 33 nömrəli əmrləri ilə təsdiq edilmişdir:

- "İxtira, faydalı model və sənaye nümunəsinin qeydiyyatına dair dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq və iddia sənədinə daxil olan materialların surətinin verilməsi üçün Ərizə nümunəsi";
- İxtiraya dair patentin alınması üçün Ərizə nümunəsi";
- "Faydalı modelə dair patentin alınması üçün Ərizə nümunəsi";
- "Sənaye nümunəsinə dair patentin alınması üçün Ərizə nümunəsi";
- "Patentin alınması üçün ərizənin doldurulması və təqdim edilməsi Qaydası";
- "İxtira, faydalı model və sənaye nümunəsinin yaradılması və istifadəsi ilə bağlı Müəllif Müqaviləsinin nümunəsi";

- “İxtira, faydalı model və sənaye nümunəsinin yaradılması və istifadəsi ilə bağlı xidməti tapşırıq müqaviləsinin nümunəsi”.

Bunlarla yanaşı, Agentliyin nümayəndələri il ərzində ƏFN olan texnologiyaların tətbiqi və kommersiyalaşdırılması, innovativ fəaliyyət və innovasiyaların cəlb edilməsi məsələləri üzrə bir sıra beynəlxalq və milli, o cümlədən aşağıda göstərilən tədbirlərdə iştirak və çıxış etmişlər:

- 15 yanvar tarixində Təhsil Nazirliyinin Təhsil İnstitutunda **“Azərbaycanın Ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi”** layihəsi çərçivəsində **“Open Access”** mövzusunda növbəti seminar keçirilib. Tədbirdə beynəlxalq ekspert Daniel Spichtinger tərəfindən “Open Access”-in mahiyyəti və istifadə metodları, “Açıq elm /Azad daxilolma” (“Open Science / Open Access”) sisteminin qurulması və Azərbaycanda bu sahədə görülən işlər barədə ətraflı məlumat verilib və muzakirələr aparılıb. Seminarda Əqli Mülkiyyət Agentliyin Texnologiya transferi və kommersiyalaşmaya dəstək şöbəsinin əməkdaşları iştirak ediblər. Layihənin əsas məqsədi ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların strategiyası və idarəedilməsinin gücləndirilməsindən ibarətdir.

- 27 fevral tarixində Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) **“Universitetlərdə akademik tədqiqatların kommersiyalaşması: Beynəlxalq reallıqlar və yeni çağırışlar”** mövzusunda konfrans keçirilmişdir. Hər ilin 27 mart tarixinin Elm günü kimi qeyd olunmasını nəzərə alaraq, tədbirdə UNEC-də “Elm aylığı”na start verildiyi və universitetdə 20-dən çox müxtəlif elmi tədbirlərin keçirilməsinin nəzərdə tutulduğu qeyd olunmuş, aparılan elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması üçün onun nəticələrinin elm dünyasına ötürülməsinin tələb olunduğu vurğulanmışdır. Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri tədbirdə “Əqli mülkiyyət və elmi-təd-

qiqat nəticələrinin kommersiyalaşdırılması" mövzusunda məruzə ilə çıxış edərək qeyd etmişdir ki, Prezident İlham Əliyevin dəstəyi nəticəsində Azərbaycanda əqli mülkiyyət sahəsində zəngin milli qanunvericilik bazası formalaşdırılmışdır. Təqdimatda milli innovasiya sistemlərinin modelləri, bilik iqtisadiyyatına aid olan sahələrin ÜDM-da payı, ixtiralarla bağlı göstəricilərin dinamikası açıqlanıb. Eyni zamanda kommersiyalaşma ilə bağlı ali məktəblərin qarşısında duran vəzifələrdən söz açılıb. Məruzəçi ölkədə innovasiya potensialının nəticələrdən daha yüksək olduğunu diqqətə çatdıraraq, imkanlardan səmərəli istifadənin vacibliyini vurğulayıb, elmi fəaliyyətin müasir modelinin 3.0 universitet səviyyəsinə qaldırılmasında önəmli məqamları qeyd edib. Ölkədə biliklərə əsaslanan cəmiyyətin formalaşdırılmasının və insan kapitalına investisiyaların qoyuluşunun dövlətin strateji məqsədlərindən olduğunu və universitetlərlə birgə əməkdaşlığın bu sahəyə böyük töhfələr verəcəyini vurğulayıb.

- 21 may tarixində ÜƏMT və Avropa Patent ofisinin iştirakı ilə Latviya Respublikasının Patent İdarəsinin 100 illik yubileyinə həsr olunmuş Latviyanın Riga şəhərində **"Əqli Mülkiyyət – İllüziya olmadan Baxış" (İntellectual Property – Vision Without Illusion)** mövzusunda virtual formatında keçirilmiş konfrans.

- 29 iyun tarixində Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən Avrasiya Patent Təşkilatı (EAPO) ilə birlikdə **"Qafqaz, Orta Asiya və Şərqi Avropada əqli mülkiyyətin kommersiyalaşmasında mövcud tendensiyalar və problemlər"** mövzusunda virtual formatda keçirilmiş regional seminar.

- 17 iyul tarixində Avropa Birgə Tədqiqat Mərkəzinin Azərbaycandakı nümayəndəliyin təşəbbüsü ilə Agentlik tərəfindən **"Azərbaycanda Texnologiya Transferi sahəsində vəziyyətin öyrənilməsi"** mövzusunda Avropa

Komissiyasının mütəxəssislər qrupu ilə keçirilmiş virtual görüş.

- 24 avqust tarixində Sinqapurda ÜƏMT-nin Bürosu və Sinqapurun (IPOS) Əqli intellektual Mülkiyyət İdarəsi tərəfindən keçirilmiş **“Əqli mülkiyyət qurumları innovativ agentliklər kimi"** mövzusunda Regional onlayn seminar.

- 10-11 sentyabr tarixlərində Avrasiya Patent Təşkilatının (APT) İnzibati Şurasının video-konfrans formatında keçirilmiş otuz altıncı iclas. Tədbirdə APT-nın üzv-dövlətləri – Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Türkmənistanın səlahiyyətli nümayəndələri, həmçinin Avrasiya Patent İdarəsinin (APİ) və ÜƏMT-nın nümayəndələri iştirak edib. İclasın gedişatında sənaye nümunələrinin hüquqi qorunması üzrə Avrasiya sisteminin yaradılması layihəsinin həyata keçirilməsinin vəziyyəti, APT tərəfindən “Patent kooperasiyası haqqında” Müqaviləyə əsasən beynəlxalq axtarış orqanı və beynəlxalq ilkin ekspertiza orqanı statusunun istənilməsi xahişi, Avrasiya Patent Konvensiyasının (APK) Maliyyə təlimatının yenilənməsi, APT çərçivəsində mübahisələrin baxılması prosedurunun təkmilləşdirilməsi və digər məsələlər müzakirə olunub, “Patent kooperasiyası haqqında” Müqavilə ilə uyğunlaşma məqsədilə APK-nın Patent Təlimatına və APT-nın Rüsumlar haqqında Əsasnaməsinə dəyişikliklər edilib. Azərbaycan Respublikasının APT-nın İnzibati Şurasındakı səlahiyyətli nümayəndəsi, Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri müzakirə olunan məsələlər ilə əlaqədar ölkəmizin mövqeyini bildirib və müvafiq təkliflər verib.

Bununla yanaşı, Agentliyin mütəxəssislərinin apardığı təhlillər və materiallar əsasında “Azərbaycanda ixtiraçılıq və patent analitikası” və “Azərbaycanda sənaye nümunələrinin, coğrafi göstəricilərin və əmtəə nişanlarının

analitik icmalı" adlı kitablar (Azərbaycan və rus dillərində) hazırlanaraq nəşr edilmiş və yayılmışdır.

Həmçinin Agentliyin nümayəndələri il ərzində ƏFN olan texnologiyaların tətbiqi və kommersiyalaşdırılması, innovativ fəaliyyət və innovasiyaların cəlb edilməsi məsələləri üzrə bir sıra beynəlxalq və milli tədbirlərdə iştirak etmişlər.

**4. Əqli mülkiyyət hüquqlarının obyektlərinin qeydiyyatı.** 2020-ci ildə patent sisteminin inkişaf etdirilməsi, sahə qanunvericiliyinin təkmilləşdirilməsi, ixtiraçıların və sahibkarların məlumatlılığının artırılması istiqamətində məqsədyönlü iş aparmış, o cümlədən ekspertizanın keyfiyyətinin artırılmasına və iddia sənədlərinə baxılmasında qanunvericiliklə müəyyən edilmiş prosedurların vaxtında yerinə yetirilməsinə nəzarət gücləndirilmiş, sənaye mülkiyyəti obyektlərinin qeydiyyata alınmasında, qeydiyyat müddətlərinin uzadılmasında, qanunvericiliyin tətbiqində və ekspertiza prosedurlarının həyata keçirilməsində şəffaflıq və tələbkarlıq artırılmış, müasir çağırışlar əsasında yeni yanaşma metodlarının tətbiqinə başlanılmış, iddia sənədlərinin qəbulunun, ekspertizasının və qeydiyyatının "vahid pəncərə" prinsipi əsasında həyata keçirilməsi təmin edilmişdir. Eyni zamanda beynəlxalq patentlərin qeydiyyatı üzrə PCT sisteminin geniş tətbiqinə diqqət daha da artırılmış, ixtiraların və faydalı modellərin qeydiyyata alınması üzrə prosedurlar icra olunarkən "İddiaçı-ekspert" arasında elektron qaydada ünsiyyət" prinsipi tətbiq edilmişdir.

**4.1. Sənaye mülkiyyəti obyektlərinə dair iddia ərizələrinə baxılması nəticələri.** 2020-ci ildə ƏMH obyektləri barəsində daxil olmuş iddia sənədlərinin ekspertizası və həmin obyektlərin dövlət qeydiyyatı üzrə aşağıdakı istiqamətlərdə iş görülmüşdür:

**İxtira və faydalı modellər üzrə.** Hesabat dövründə Əqli Mülkiyyət Agentliyinə ixtira və faydalı modellərin qeydiyyatı ilə bağlı 148, o cümlədən ixtiraya dair 108, faydalı modelə dair 40 iddia sənədi daxil olmuşdur. Beynəlxalq PCT proseduru üzrə göndərilməsi üçün milli iddia sənədlərinin sayı 5, Avrasiya Patent Təşkilatına göndərilməsi üçün milli iddia sənədlərinin sayı 24 olmuşdur.

İddia sənədlərinə dair ilkin ekspertizanın müsbət nəticəsi haqqında 120 bildiriş verilmişdir. İlkin ekspertiza sorğusu verilmiş iddia sənədlərinin sayı 45, kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı 54, iddia sənədləri üzrə verilmiş bildirişlərin sayı 125 olmuşdur. İddia sənədləri üzrə 148 axtarış aparılmışdır. Beynəlxalq Büroya 5, Avrasiya Patent Təşkilatına 15 iddia sənədi göndərilmişdir.

Hüquqların növləri üzrə daxil olan iddia sənədləri, iddia sənədləri üzrə qanunvericilikdə müəyyən edilmiş qaydada iddiaçılara və digər maraqlı şəxslərə göndərilən (verilən) bildirişlərə, sorğulara və arayışlara dair statistik məlumatlar aşağıda Cədvəl 1-də verilmişdir:

***Cədvəl 1***

**İxtira və faydalı modelin qeydiyyatı ilə bağlı iddia sənədləri barədə məlumat**

| № | Hüquqi hərəkətin adı | Milli iddia sənədləri | | Beynəlxalq (PCT) göndərilməsi üçün milli iddia sənədləri | Avrasiya Patent Təşkilatına göndərilməsi üçün milli iddia sənədləri |
|---|---|---|---|---|---|
| | | İxtira | Faydalı model | | |
| **İLKİN EKSPERTİZA ÜZRƏ** | | | | | |
| 1 | Daxil olan iddia | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | sənədlərinin sayı | **108** | **40** | **5** | **24** |
| 2 | İlkin ekspertizanın müsbət nəticəsi haqqında bildiriş verilmiş iddia sənədlərinin sayı | **120** | | | |
| 3 | İlkin ekspertiza sorğusu verilmiş iddia sənədlərinin sayı | **45** | | | |
| 4 | Kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı | **54** | | | |
| 5 | İddia sənədləri üzrə verilmiş bildirişlərin sayı | **125** | | | |
| 6 | Aparılan axtarışların sayı | **148** | | | |
| 7 | Hazırlanmış və BB-ya və ya AAPİ-yə göndərilmiş iddia sənədlərinin sayı | | | **5** | **15** |
| **MAHİYYƏTCƏ EKSPERTİZA ÜZRƏ** | | | | | |
| 7 | Məlumatın dərci haqqında iddia sənədlərinə rəy(qərar)ların sayı | **121** | | | |
| 8 | Mahiyyətcə ekspertizanın sorğusu verilmiş iddia sə- | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | nədlərinin sayı | **1165** | | |
| 9 | Patent verilmə-sindən imtina haqqında qə-rarların sayı | **12** | | |
| 10 | Kargüzarlığı dayandırılmış iddia sənədləri-nin sayı | **29** | | |
| 11 | İddia sənədləri üzrə verilmiş bildirişlərin sayı | **48** | | |
| 12 | İddia sənədinin dəyişilməsi haqqında bildi-rişlərin sayı | **9** | | |

**Mahiyyətcə ekspertiza üzrə:** İddia sənədi barədə məlumatların dərci haqqında 121, patent verilməsindən imtina haqqında 12 qərar qəbul edilmiş, mahiyyətcə ekspertizanın sorğusu verilmiş iddia sənədlərinin sayı 165, kargüzarlığı dayandırılmış iddia sənədlərinin sayı 29, iddia sənədləri üzrə bildirişlərin sayı 48 olmuşdur. İxtira səviyyəsinə dair tələbləri ödəmədiyinə görə qeydiyyat üçün təqdim edilmiş 9 iddia sənədinin ekspertizasının nəticələri əsasında onların faydalı modelə çevrilməsi barədə iddiaçıya 9 bildiriş göndərilmiş və onlar ilkinlik tarixi saxlanılmaqla faydalı modelə çevrilmişdir.

Agentliyə ixtira və faydalı modellərin qeydiyyatı ilə bağlı PCT proseduru üzrə 18 və konvensiya ilkinliyi üzrə 8 xarici iddia sənədi daxil olmuşdur.

**Əmtəə nişanları və sənaye nümunələri üzrə:** 2020-ci ildə əmtəə nişanlarının qeydiyyatı ilə bağlı Agentliyə 2288 iddia sənədi daxil olmuşdur. Kargüzarlıqda olan

əmtəə nişanlarına dair iddia sənədləri üzrə ekspertizanın nəticələrinə əsasən, 2030 ilkin ekspertiza bildirişi, 1971 iddia sənədinin baxılmağa qəbul edilməsi haqqında arayış, 779 ekspertiza sorğusu, 767 iddia sənədinin geri çağırılması haqqında bildiriş, 793 ə-mtəə nişanının qeydiyyata alınması haqqında qərar, 755 əmtəə nişanının qeydiyyatından imtina haqqında rədd bildirişi, 241 əmtəə nişanının qeydiyyatından imtina haqqında rədd qərarı, sənaye nümunələrinə dair ilkin ekspertizanın müsbət nəticəsi haqqında 12 bildiriş, 1 ilkin ekspertiza bildirişi, 18 ilkin ekspertiza sorğusu, kargüzarlığın dayandırılması haqqında 4 bildiriş, sənaye nümunələrinin mahiyyəti üzrə ekspertizasına dair 18 sorğu, iddia sənədi barəsində məlumatın dərci haqqında 26 qərar, patent verilməsindən imtina haqqında 2 qərar, coğrafi göstəriciyə dair 1 ekspertiza sorğusu, 2 coğrafi göstəricinin qeydiyyata alınması haqqında qərar tərtib edilərək iddiaçılara təqdim edilmişdir **(Bax: Cədvəl 2).**

***Cədvəl 2***

| **Milli prosedur üzrə görülmüş işlər haqqında ümumi məlumat** | | |
|---|---|---|
| **Əmtəə nişanı** | **Sənaye nümunəsi** | **Coğrafi göstərici** |
| Bildiriş – **2030 ədəd** | Müsbət bildiriş – **12 ədəd** | Sorğu – **1 ədəd** |
| Arayış – **1971 ədəd** | İlkin ekspertizaya dair Sorğu – **18 ədəd** | Rəy-qərar – **2 ədəd** |
| Sorğu – **779 ədəd** | İlkin ekspertizaya dair Bildiriş – **1 ədəd** | |
| İddia sənədinin geri çağırılması haqqında | Karğüzarlığın dayandırılmasına dair bildiriş – **4 ədəd** | |

| | | |
|---|---|---|
| Bildiriş – **767 ədəd** | | |
| Rəy-qərar – **793 ədəd** | Mahiyyət ekspertizasına dair Bildiriş – **18 ədəd** | |
| İmtina haqında Bildiriş – **755 ədəd** | Məlumatın dərci haqqında Rəy-qərar – **26 ədəd** | |
| İmtina haqqın-da Rəy-qərar – **241 ədəd** | Patentin verilməsindən imtina haqqlnda Rəy-qərar – **2 ədəd** | |

Beynəlxalq prosedur üzrə əmtəə nişanlarına və sənaye nümunələrinə dair daxil olmuş bildirişlər **Cədvəl 3-də** verilmişdir:

***<u>Cədvəl 3</u>***

| **Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid sazişi və ona dair protokol üzrə 2020-ci ildə daxil olan bildirişlərin sayı:** | **Sənaye nümunələrinin beynəlxalq qeydiyyatına dair Haaqa sazişi üzrə 2020-ci ildə daxil olan bildirişlərin sayı:** |
|---|---|
| **3048 ədəd** | **130 ədəd** |

Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid Sazişi və ona dair Protokol üzrə kargüzarlıqda olan 3702 iddia sənədinin ekspertizası aparılmışdır. Onlardan 415 əmtəə nişanının qeydiyyatından ilkin imtina barədə qərar, 136 əmtəə nişanı barəsində tərkibində olan müəyyən elementlərə hüquqi mühafizə verilməməsi şərti-

lə qeydiyyata alınması haqqında qərarlar qəbul edilmiş, həmin qərarlar barədə məlumatlar ÜƏMT-na göndərilmişdir. Yerli iddiaçılar tərəfindən beynəlxalq qeydiyyat üçün 7 iddia sənədi  təqdim olunmuş, həmin sənədlərin ÜƏMT-nın tətbiq etdiyi tələblərə uyğunluğu yoxlanılmış və qanunvericiliklə müəyyən olunmuş haqq ödənildikdən sonra sənədlər ÜƏMT-nın Beynəlxalq Bürosuna göndərilmişdir.

**Sənaye nümunələrinin qeydiyyatı ilə bağlı** Agentliyə milli iddiaçılardan 94 iddia sənədi daxil olmuşdur. 26 iddia sənədi üzrə müsbət qərar qəbul edilmiş, qanunvericiliyin tələblərinə uyğun gəlmədiyinə görə 2 iddia sənədinin qeydiyyatından imtina edilmişdir. Qalan iddia sənədlərinin ekspertizası üzrə prosedurlar davam etdirilir. Sənaye nümunələrinin beynəlxalq qeydiyyatına dair kargüzarlıqda olan 130 iddia sənədindən 116-sının  ekspertizası keçirilmiş, onlardan 112-si barədə müsbət qərar, 4-ü barədə qeydiyyatından imtina qərarı qəbul edilərək, nəticələrə dair məlumatlar ÜƏMT-nın Beynəlxalq Bürosuna göndərilmişdir.

Hesabat ilində COVİD-19 Pandemiyasının yaratdığı problemlər səbəbindən əmtəə nişanlarının qeydiyyatı ilə bağlı daxil olan iddia sənədlərinin sayında əvvəlki illə müqayisədə cüzi azalma müşahidə olunmuşdur **(Cədvəl 4).**

***Cədvəl 4***

| **Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı daxil olmuş iddia sənədlərinin ümumi sayı (Naxçıvan daxil olmaqla)** | |
|---|---|
| **2019-cu il** | **2020-ci il** |
| **2322** | **2288** |

**Naxçıvan MR-**dan daxil əmtəə nişanlarına dair məlumat **Cədvəl 5-də** verilmişdir:

***Cədvəl 5***

| Naxçıvan MR-dan əmtəə nişanlarına dair daxil olmuş iddia sənədlərinin sayı | |
|---|---|
| **2019-cu il** | **2020-ci il** |
| **54** | **64** |

İstifadəçilərin rahatlığı üçün Əmtəə və xidmətlərin beynəlxalq təsnifatı (Nitsa təsnifatı) Azərbaycan dilinə tərcümə olunaraq Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin saytında yerləşdirilmişdir.

İddia sənədlərinin qəbulu, baxılmaq üçün qəbul edilməsi, qanunvericiliklə müəyyən edilmiş xidmət haqlarının iddiaçılar tərəfindən ödənilməsi prosedurlarının daha aydın olması, bu sahədə müşahidə olunan texniki çətinliklərin aradan qaldırılması, iddia sənədlərinə dair əlavə sənədlərin tələb olunması (zəruri hallarda), iddia sənədinin ekspertizası keçirilərkən müddətin uzadılması və digər məsələlər üzrə soğu və bildirişlərin yeni nümunələrinin layihələri hazırlanmışdır. Layihələr hazırda aidiyyəti struktur bölmələri ilə razılaşdırma mərhələsindədir. Razılaşdırma başa çatdırıldıqdan sonra müvafiq qaydada təsdiq üçün təqdim olunacaqdır.

Sorğu və bildirişlərin yeni nümunələri iddiaçıların işini asanlaşdıracaq və bu sahədə pərakəndəliyi aradan qaldırmağa imkan verəcəkdir.

**Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** 2020-ci il ərzində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestr şöbəsi tərəfindən əqli mülkiyyət hüquqları obyektlərinin mühafizəsi sahəsində normativ-hüquqi və informasiya bazasının təkmil-

ləşdirilməsi, qüvvədə olan mövcud qanunvericiliyə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələrə uyğun olaraq sənaye mülkiyyəti obyektlərinin dövlət qeydiyyatı, müvafiq mühafizə sənədlərinin verilməsi, onların qüvvədə saxlanılması, sənaye mülkiyyəti obyektlərinin dövlət reyestrinin aparılması, dövlət reyestrində və şəhadətnamədə qeydiyyatla bağlı məlumatlarda dəyişikliklərin edilməsi və müvafiq bildirişlərin verilməsi, dublikatların verilməsi, reyestr məlumatlarından çıxarışların verilməsi, sənaye mülkiyyəti obyektləri üzrə hüquqların digər şəxslərə verilməsinə dair müqavilələrin, istifadə hüququnun verilməsi ilə bağlı lisenziya müqavilələrinin qeydiyyatına dair işlər həyata keçirilmişdir.

Hesabat dövründə Azərbaycan Respublikası ilə beynəlxalq təşkilatlardan Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Avropa Patent İdarəsi, Avrasiya Patent İdarəsi və bir sıra xarici ölkələrin patent struktrurları ilə əməkdaşlıq əlaqələri inkişaf etdirilmişdir.

Carı il ərzində Sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı və reyestr şöbəsinə 3348 ədəd müraciət daxil olmuşdur.

## İXTİRALAR

2020-ci il ərzində müvafiq Dövlət reyestrində **ixtiralara dair** 110 (2019-cu ildə 102) patent qeydiyyata alınıb, onlardan 95 ədədi milli, 15 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur.



Cədvəllərdə və diaqramlarda 2020-ci ildə ixtiraya dair qeydiyyatdan keçmiş patentləri, onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə və ixtiraların sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.

| **BPT-nin bölməsi** | | **İxtiralara dair patentlərin sayı** | |
|---|---|---|---|
| | | **2020** | |
| | | **Milli** | **Xarici** |
| A | İnsan həyatı tələbatlarının təmin edilməsi | 7 | 2 |
| B | Müxtəlif texnoloji proseslər; nəqletmə | 6 | 4 |
| C | Kimya; metallurgiya | 57 | - |
| D | Toxuma mallar; kağız | - | - |
| E | Tikinti, mədən işləri | 12 | 4 |
| F | Mexanika; işıqlandırma; isitmə; silah və döyüş sursatları; partlama işləri | 2 | 3 |
| G | Fizika | 7 | 1 |
| H | Elektrik | 3 | 1 |
| **Cəmi** | | **95** | **15** |



| Ölkələr | Ölkənin kodu | İxtiralara dair patentlərin sayı |
|---|---|---|
| | | 2020 |
| Azərbaycan Respublikası | AZ | 95 |
| Türkiyə | TR | 6 |
| İtaliya | İT | 2 |
| ABŞ | US | 4 |
| Fransa | FR | 2 |
| Polşa | PL | 1 |
| **Cəmi** | | **110** |

## FAYDALI MODELLƏR

**Faydalı modellərə dair** 40 patent (2019-cu ildə 16) qeydiyyata alınıb, onlardan 24 ədədi milli, 16 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. Cədvəl və diaqramda 2020-ci ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentləri və onların Beynəlxalq patent təsnifatının sinifləri üzrə paylanması göstərilmişdir.




| BPT | Faydalı modellərə dair patentlərin sayı | |
|---|---|---|
| | 2020 | |
| | Milli | Xarici |
| A | **10** | **-** |
| B | **-** | **7** |
| D | **1** | **-** |
| E | **9** | **-** |
| F | **3** | **5** |
| G | **1** | **2** |
| H | **-** | **2** |
| **Cəmi** | **24** | **16** |

# SƏNAYE NÜMUNƏLƏRİ

**Sənaye nümunələrinə dair** 31 ədəd patent qeydiyyata alınıb, onlardan 15 ədədi milli, 16 ədədi isə xarici hüquqi şəxslərə məxsus olmuşdur. Cədvəllərdə və diaqramda 2020-ci ildə faydalı modelə dair qeydiyyatdan keçmiş patentləri və onların Sənaye nümunələrinin beynəlxalq təsnifatının sinifləri üzrə və sənaye nümunələrin sahiblərinin mənsub olduğu ölkələr üzrə paylanması göstərilmişdir.




| SNBT | Sənaye nümunələrinə dair patentlərin sayı 2020 |
|---|---|
| 06 | 1 |
| 09 | 8 |
| 11 | 3 |
| 12 | 7 |
| 15 | 1 |
| 19 | 1 |
| 21 | 3 |
| 23 | 3 |
| 26 | 1 |
| 32 | 3 |
| **Cəmi** | **31** |

| Ölkələr | Olkənin kodu | Sənaye nümunələrinə dair patentlərin sayı 2020 |
|---|---|---|
| Azərbaycan Respublikası | AZ | 15 |
| Çin | CN | 1 |
| Böyük Britaniya | GB | 1 |
| İtaliya | IT | 2 |

| | | |
|---|---|---|
| Koreya Respublikası | KR | 1 |
| Slovakiya | SK | 1 |
| Türkiyə | TR | 5 |
| ABŞ | US | 1 |
| Vyetnam | VN | 4 |
| Cəmi | | 31 |




## ƏMTƏƏ NİŞANLARI

Hesabat dövründə müvafiq Dövlət reyestrində 1043 ədəd **əmtəə nişanı** qeydiyyata alınmışdır, onlardan 482 ədədi milli, 561 ədədi isə xarici fiziki və hüquqi şəxslərə məxsus olmuşdur.



2020-ci ildə əmtəə nişanlara dair qeydiyyatdan keçmiş əmtəə nişanlarının sahiblərininn mənsub olduğu ölkələr üzrə məlumatlar cədvəl və diaqramda göstərilmişdir.

| **Ölkələr** | **Ölkənin kodu** | **Qeydiyyata alınmış əmtəə nişanlarının sayı** |
|---|---|---|
| | | **2020** |
| Birləşmiş Ərəb Əmirlikləri | AE | 23 |
| Azərbaycan Respublikası | AZ | 482 |
| Bosniya və Herseqovina | BA | 2 |
| Belqiya | BE | 2 |
| Bermud Adaları | BM | 1 |
| Belarusiya | BE | 1 |
| Kanada | CA | 4 |
| İsveçrə | CH | 26 |
| Çin | CN | 21 |
| Kuba | CU | 2 |
| Kipr | CY | 6 |
| Çexiya Respublikası | CZ | 2 |
| Almaniya | DE | 12 |
| Danimarka | DK | 2 |
| İspaniya | ES | 2 |
| Finland | FI | 1 |
| Fransa | FR | 17 |
| Böyük Britaniya | GB | 69 |
| Gürcüstan | GE | 2 |
| Yunanıstan | GR | 1 |
| Honq-Konq | HK | 2 |
| Xorvatiya | HR | 1 |
| İndoneziya | ID | 10 |
| İrlandiya | IE | 10 |
| İsrail | IL | 1 |

| | | |
|---|---|---|
| Hindistan | IN | 11 |
| İran | IR | 2 |
| İtaliya | IT | 2 |
| İordaniya | JO | 1 |
| Yaponiya | JP | 29 |
| Koreya Respublikası | KR | 13 |
| Kayman Adaları | KY | 9 |
| Qətər | QA | 5 |
| Livan | LB | 1 |
| Şri-Lanka | LK | 1 |
| Litva | LT | 4 |
| Lüksemburq | LU | 1 |
| Meksika | MX | 1 |
| Mavriki | MU | 1 |
| Niderland | NL | 5 |
| Yeni Zelandiya | NZ | 2 |
| Oman | OM | 5 |
| Portuqaliya | PT | 6 |
| Rusiya Federasiyası | RU | 38 |
| Saudiyyə Ərəbistanı | SA | 1 |
| İsveç | SE | 1 |
| Singapur | SG | 18 |
| Suriya | SY | 1 |
| Tailand | TH | 1 |
| Türkiyə | TR | 36 |
| Tayvan | TW | 2 |
| ABŞ | US | 143 |
| Virgin Adaları | VG | 1 |
| **Cəmi** | | **1043** |

**Coğrafı göstəricilər** üzrə istifadə hüquqlarına dair **2** şəhadətnamə milli hüquqi şəxsin adına qeydiyyata alınmışdır.

Patentlərin qüvvədə olma müddətinin uzadılması barədə 570, şəhadətnamələrin qüvvədə olma müddətinin

uzadılması barədə 1101, əmtəə nişanlarına dair – 784 və patentlərə dair - 6 dəyişiklər edilməsi haqqında bildiriş qeydiyyata alınmışdır. 41 dublikat, 215 çıxarış verilmiş, 741 ədəd bildiriş və məktublar göndərilmişdir.

Sənaye mülkiyyəti obyektləri üzrə 102 müqavilə qeydiyyata alınmışdır. Onlardan 82 ədədi əmtəə nişanları üzrə hüquqların verilməsinə, 2 ədədi ixtira üzrə hüquqların verilməsinə; 1 ədədi faydalı modelə dair hüquqların verilməsinə; 18 ədədi əmtəə nişanları üzrə istifadə hüququna dair lisenziya verilməsinə aiddir.

Sənaye mülkiyyəti obyektlərinin hüquqi statusu və onlar haqqında sonrakı dəyişikliklər, müəlliflər, iddiaçılar və sahibləri haqqında, sənaye mülkiyyəti obyektlərinə dair hüquqların, onlardan istifadəyə dair lisenziya müqavilələrinin verilməsi və bu sahəyə dair digər reyestrə daxil edilmiş məlumatlar "Sənaye Mülkiyyəti" rəsmi bülletenində dərc edilməsi üçün göndərilməsi təmin olunmuşdur.

**4.2. Müəllif hüquqları obyektlərinin qeydiyyatı və reyestrə daxil edilməsi.** 2020-ci ildə 233 müəllifin 454 əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 468 Şəhadətnamə verilmişdir, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsi ilə müəlliflərin 91 müəllifin 192 əsəri qeydiyyatdan keçirilmiş və əsərin qeydiyyatı haqqında 197 şəhadətnamə verilmiş, 23 müqavilə qeydiyyatdan keçirilmişdir.

Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-cı ildən 2021-ci il 01 yanvar tarixinədək Agentlikdə bütövlükdə 13410 əsər və əlaqəli hüquqların obyektləri, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsi ilə 199 müəllifin 416 əsəri qeydiyyatdan keçirilmişdir.

## 1996-2020-ci illərdə qeydiyyatdan keçirilmiş əsərlərin ümumi sayı (faizlə) (on-line qeydiyyat daxil olmaqla)




- Musiqili – 3842 (28.7%)
- Ədəbi, o cümlədən kompüter proqramı – 3678 (27.2 %)
- Elmi və tədris–2674 (20%)
- Dizayn və dekorativ-1292 (9.63%)
- Toplular – 501 (3,7%)
- Multimedia əsərləri–99 (0,73%)
- Fonoqramlar və yayım təşkilatlarının verilişləri – 45 (0,37%)
- Məlumat bazaları–15 (0,11%)
- Audiovizual – 514 (3,9%)
- Qalanları -757 (5,64%)

**5. Kreativ iqtisadiyyat.** Hesabat dövründə müəllif-lik hüququna əsaslanan kreativ sənayenin 2019-cu il milli iqtisadiyyat sahələri üzrə faktiki statistik göstəriciləri və dövlət büdcəsi rəqəmləri təhlil edilmiş, müəlliflik hüququna əsaslanan milli iqtisadiyyat sahələrində istehsalın həcmi müəyyən edilmiş, sonra bu sahələrin ölkə üzrə ümumi daxili məhsulda xüsusi çəkisi hesablanmışdır. Agentliyin apardığı təhlil və hesablamalar göstərir ki, Azərbaycanın ÜDM-də kreativ sənayenin payı ardıcıl olaraq artmaqdadır. 2019-cu ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 4356,3 mln. manat təşkil etmişdir. Ölkənin ÜDM-də kreativ sənayenin payı 2010-cu ildə olan 3,5%-dən 2020-ci ilin 1 yanvarına olan vəziyyətə görə 5,1%-ə çatmış və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. Müəlliflik hüququna əsaslanan sahələr 9 il ərzində 1,8%-dən 3,0%-ə çatmışdır. Bu isə müəllif hüququ sahəsinin inkişafının əsas göstəriciləridir.

**Azərbaycanın kreativ industriyasının, o cümlədən müəlliflik hüququna əsaslanan sahələrin ÜDM-də payı**



## 6. Əqli mülkiyyət hüquqlarının təminatı, piratşılığa qarşı mübarizə və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması.

**6.1.** Əqli mülkiyyət hüquqlarının təminatı ilə bağlı məsələlər Agentliyin fəaliyyətində diqqət mərkəzində saxlanmış, ƏMH-nın qorunması sahəsində digər dövlət qurumları ilə əlaqəli tədbirlər davam etdirilmiş, piratçılığa qarşı mübarizə tədbirləri çərçivəsində bir sıra çap məhsullarına nəzarət markalarının verilməsi təmin edilmişdir. Nəzarət markalarının tətbiqi hüquqların təminatı və piratçılığa qarşı mübarizə tədbirləri çərçvəsində xüsusi əhəmiyyət malikdir. Bu baxımdan müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılması üçün nəzarət markalarının hazırlanması və onların müqavilə əsasında istifadəçiyə verilməsi, həmin nüsxələrin yaradılmasının qanuniliyinin müəyyənləşdirilməsi, yuxarıda qeyd edilən obyektlərə nəzarət markaları yapışdırılaraq yayılmasına nəzarət edilməsi, bu obyektlərin dövlət reyestrinin aparılmasının təmin edilməsi diqqət mərkəzində olmuşdur. İl ərzində müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin nüsxələrinə yapışdırmaq üçün 500 ədəd nəzarət markası verilmiş, çap məhsullarına nəzarət markalarının verilməsi üçün bir təhsil müəssisəsinin Agentliyə müraciəti daxil olmuş, onun baxılması yaxın müddətdə baş verməlidir. Ümumilikdə 2020-ci ilin sonuna istifadəçilərə 24998 ədəd nəzarət markası verilmişdir.

Bu xüsusda nəzarət markalarının tətbiqi ilə bağlı bir sıra təşkilatların səlahiyyətli nümayəndələri, o cümlədən naşirlərlə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən COVİD-19 koronavirus infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı müəyyən edilən tələb və qaydalar nəzərə alınmaq-

la görüşlər keçirilmiş və müvafiq təlim xarakterli izahatlar verilmiş, onların elektron poçt ünvanlarına qanunvericilikdə nəzərdə tutulmuş müvafiq sənədlər göndərilmişdir. Bununla yanaşı, CD və DVD-lərə nəzarət markalarının tətbiqinə başlanılması istiqamətində işlər davam edilmişdir.

Hüquqların təminatı ilə bağlı tədbirlər çərçivəsində 2 mart 2020-ci il tarixində Əqli Mülkiyyət Agentliyi və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə hakim vəzifəsinə namizədlər üçün tədris kursu çərçivəsində keçirilən "**Əqli mülkiyyət hüquqlarının qorunması və hüquqi təminatı**" mövzusunda seminar təşkil edilmiş, tədbirdə Agentliyin İdarə heyətinin sədri Kamran İmanovun "Əqli mülkiyyət müasir mərhələdə (hüquqların qorunması və təminatı)" adlı təqdimatı dinlənilmiş, həmin təqdimat əsasında eyniadlı kitab hazırlanaraq çap edilib yayılmışdır.

Azərbaycan Professional Kinorejissorlar Gildiyası ilə birgə əməkdaşlıq haqqında müqavilənin şərtlərinə uyğun olaraq audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasında iştirak edən maddi daşıyıcıların növlərinin müəyyən edilməsi, belə maddi daşıyıcıların ölkə ərazisinə idxal edən və ölkə ərazisində istehsal edən subyektlərin müəyyən olunması istiqamətində uçotun formalaşdırılması, həmin subyektlər üçün qanunvericiliyin tələbləri üzrə maarifləndirici tədbirlərin həyata keçirilməsi, audiovizual əsərə münasibətdə müəlliflərin, ifaçıların və audiovizual əsər istehsalçılarının, fonoqrama münasibətdə isə ifaçıların və fonoqram istehsalçılarının qonorar almaq hüququnun təmin edilməsi istiqamətində işlər görülmüşdür. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə şəxsi məqsədlər üçün gəlir götürmədən sürət çıxarmada istifadə olunan maddi daşıyıcıları ölkə ərazisinə idxal edən hüquqi şəxs-

lərin müəyyən edilməsi məqsədiylə müraciət hazırlanmış və aidiyyəti üzrə təqdim olunmuşdur. Dövlət Gömrük Komitəsindən daxil olan məlumatlar əsasında 2020-ci ilin ilk altı ayı üzrə Excel formatında surətçıxarmada istifadə olunan maddi daşıyıcıları ölkə ərazisinə idxal edən hüquqi şəxslərdən ibarət Uçot məlumat  bazası yaradılmışdır.

Rəqəmsal şəbəkələrdə müəllif hüquqlarının qorunması istiqamətində işlər təhlil olunmuş və müvafiq arayışlar aidiyyatı üzrə təqdim olunmuşdur. Azərbaycanın tanınmış bəstəkarı Elza İbrahimovanın qardaşı Çingiz İbrahimovun bəstəkar E.İbrahimovanın adına açılmış "Youtube" kanalının "WediaCorp Azərbaycan" şirkəti tərəfindən "Youtube" portalına etdiyi şikayətlər nəticəsində bir çox musiqi nömrələrinin bağlanıldığını bildirmiş və bununla bağlı Əqli Mülkiyyət Agentliyindən köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə əlaqədar Agentlik tərəfindən araşdırmalar aparılmış və görülən tədbirlər nəticəsində E.İbrahimovanın adına açılmış "Youtube" kanalında bağlanmış musiqi nömrələri açılmışdır. Ç.İbrahimov məsələnin operativ və müsbət həll olunmasında göstərdiyi köməyə görə Agentliyə öz minnətdarlığını bildirmişdir. Gələcəkdə baş verə biləcək uyğun hüquq pozuntularının qarşısının alınması məqsədi ilə Agentlik tərəfindən tabeliyində olan Əqli Mülkiyyət hüquqlarının Təminatı Mərkəzinə tapşırıqlar verilmiş və Multikanal Media Şəbəkəsinin yaradılması istiqamətində işlərin görülməsi tapşırılmışdır. Hal-hazırda Mərkəz tərəfindən qeyd olunan fəaliyyətin qurulması üçün işlər aparılır.

İnformasiya-kommunikasiya texnologiyalarının, o cümlədən sosial media, videopaylaşım və digər rəqəmsal media platformalarının sürətli inkişafının əsərlərin istifadəçiləri üçün yaratdığı geniş imkanlar hesabına son illər "YouTube" kimi videopaylaşım platformalarında müəllif hüquqlarının pozulması hallarının artdığını nəzərə alaraq,

mövcud problemin öyrənilməsi və neqativ halların aradan qaldırılması ilə əlaqədar Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı tərəfindən “Multikanal Şəbəkə” barədə ilkin Arayış və fəaliyyət planı, həmçinin gələcəkdə zəruri texnoloji infrastrukturun qurul-ması üçün lazımi avadanlıqlarla bağlı təklif hazırlanmış-dır. Hazırda müəllif hüquqlarının qorunması məqsədilə “YouTube” kimi platformalarla əməkdaşlıq edəcək vahid “Multikanal Şəbəkə” formalaşdırılaraq əqli mülkiyyət hü-quqlarının qorunmasının həyata keçirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi işi davam etdirilir.

Agentliyin nümayəndələri əqli mülkiyyət obyektlərinə hüquqların təminatı ilə bağlı müxtəlif məhkəmə instansi-yalarında keçirilmiş 53 iş üzrə (onlardan 45-i sənaye mülkiyyəti obyektləri, 8-i isə müəllif hüquqları ilə bağlı) 130-dan çox məhkəmə iclasında iştirak etmiş, hər bir iş üzrə ekpert rəyi hazırlanmış və məhkəyə təqdim olunmuşdur.

Agentliyin Sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası tərəfindən 79 işə baxılmış, 28 iş üzrə ərizənin təmin edilməsi, 14 iş üzrə ərizənin qismən təmin edilməsi, 26 iş üzrə, o cümlədən əmtəə nişanına dair 25, ixtiraya dair 1 ərizənin rədd edilməsi haqqında qərarlar çıxarılmışdır. 8 ərizənin baxılmamış saxlanması, 3 ərizənin verilməmiş hesab edilməsi barədə qərarlar qəbul edilmişdir.

Pozulmuş müəlliflik hüquqlarının bərpası ilə bağlı hüquqi və fiziki şəxslərdən 11 yazılı müraciət daxil olmuş, həmin müraciətlərə müəllif-hüquq qanunvericiliyinin tələbləri nöqteyi-nəzərindən baxılmış, bir qismi Agentliyin səlahiyyətləri çərçivəsində həll edilmiş, qalanları isə aidiyyəti qurumlara göndərilmişdir.

Proqram təminatı sahəsində həyata keçirilən tədbirlər çərçivəsində "Microsoft" şirkəti ilə əməkdaşlıq davam etdirilmiş, bu sahədə əməkdaşlığın koordinasiya edilməsi məqsədi ilə yaradılmış Agentliyin və "Microsoft" şirkətinin nümayəndələrindən ibarət İşçi qrupun onlayn rejimdə məsləhətləşmələri keçirilmişdir.

Cari ilin 6 fevral tarixində Əqli Mülkiyyət Agentliyində ABŞ-ın "Oracle Corporation" şirkətinin nümayəndələri ilə görüş keçirilib. Agentliyin İdarə Heyətinin sədri dövlət başçısı tərəfindən aparılan iqtisadi islahatlar və ölkəmizdə ƏM sahəsində əldə edilmiş uğurlu nəticələr barədə ətraflı məlumat verib. "Oracle Corporation" şirkətinin Rusiya Federasiyası və MDB ölkələri üzrə vitse-prezidenti Oleq Jukov, Qafqaz, Orta Asiya regionu üzrə direktor Dmitri Smirnov və şirkətin Azərbaycandakı texnologiya satışı üzrə nümayəndəsi Dilşod Maksudxanov qəbul üçün təşəkkürlərini bildirərək 6-7 fevral tarixlərində Bakıda "Hilton" mehmanxanasında keçirilən beynəlxalq "Oracle Day – 2020" tədbiri haqqında məlumat verimiş və belə tədbirlərin keçirilməsinin yerli istehlakçı şirkətlərlə əlaqə-

lərin qurulmasında müsbət təsiri olduğunu vurğulayıblar. Görüşdə şirkətin istehsalı olan proqram təminatlarından lisenziyasız istifadə ilə mübarizə istiqamətində Agentliyin gördüyü işlər yüksək qiymətləndirilib və növbəti mərhələlərdə birgə addımların atılmasının vacibliyi qeyd olunub.

Agentliyin 960 nömrəli “Qaynar xətt”i və ictimai əsaslarla fəaliyyət göstərən “Hüquq məsləhətxanası” müəlliflərin və digər hüquq sahiblərinin istifadəsində olmuş, müəllif-hüquq məsələləri üzrə 1650-dən artıq müraciət və sorğuya cavab verilmiş, qaldırılan məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində hüquqi köməklik göstərilmişdir.




Bununla yanaşı, Agentliyə müvafiq dövlət və məhkəmə orqanlarından, eləcə də fiziki və ya hüquqi şəxslərdən 2020-ci ildə daxil olmuş sorğular, şikayət ərizələri əsasında ekspert rəyləri hazırlanmış, pozulmuş hüquqların bərpası ilə bağlı işlər görülmüşdür.

Müvafiq dövlət qurumları ilə birgə həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2005-ci illə müqayisədə 2020-ci ildə piratçılığın səviyyəsi kitab satışı sahəsində 61%-dən **22%-ə**, audio-video məhsul bazarında 90%-dən 57**%-ə**, proqram təminatında 96%-dən **71%-ə** düşmüşdür.




**6.2.** Əqli mülkiyyət hüquqlarının müdafiəsinin səmərəli təminatı cəmiyyətdə əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması, müəlliflərin, hüquq sahibləri və istifadəçilərin hüquqlarına hörmətlə yanaşmanın inkişaf etdirilməsini, nəticə etibarilə cəmiyyətin maarifləndirilməsi və məlumatlandırılması tələblərini zəruri edir.

Agentliyin Nizamnaməsi ilə müəyyən edilmiş əqli mülkiyyət hüquqları sahəsində hüquqi maarifləndirmə işinin aparılması vəzifəsinə uyğun olaraq, hesabat ilində hüquqi maarifləndirilmə məqsədi ilə 18 tədbir keçirilmiş, informasiya, maarfləndirici və təbliğat xarakterli 200-dən artıq məqalə və yazıların KİV-lərdə dərc olunmasına dəstək verilmiş, TV və radio kanallarında əqli mülkiyyət sahəsinə dair 20-dan çox veriliş və süjetlər hazırlanmışdır. Eyni zamanda Agentliyin əməkdaşları iştirak etdikləri yerli və beynəlxalq tədbirlərdə əqli mülkiyyət məsələlərinə dair 20-dən artıq təqdimat və çıxışlar etmişlər.




COVİD-19 virusu pandemiyası ilə əlaqədar tətbiq edilən karantin rejimi digər məqsədlərlə yanaşı mühüm maarifləndirici effekt yaradan və əqli mülkiyyət sahəsi üzrə geniş yerli və beynəlxalq mütəxəsis və ekspertlər tərkibi cəlb edən ƏMA-nin fəaliyyətinin ənənəsinə dönmüş 23 Aprel – Ümumdünya Kitab və Müəllif Hüquqları Günü və 26 aprel – Ümudünya Əqli Mülkiyyət Gününə həsr edilən beynəlxalq tədbirlərin hesabat ilində əyani şəkildə keçirilməsini mümkün etmədiyinə baxmayaraq, Agentliyin İdarə Heyətinin sədri sahə üçün bu əlamətdar hadisələrlə əlaqədar müraciətlər etmişdir.

**23 Aprel – Ümumdünya Kitab və Müəllif Hüquqları Günü ilə əlaqədar** Agentliyin rəsmi saytı vasitəsilə yayımlanan və KİV-də şərh edilən və müasir mədəni dünyagörüşünün formalaşması və maarifləndiricilik meyarları nöqteyi nəzərdən əhəmiyyətli məna kəsb edən müraciətdə, o cümlədən plagiat, saxtakarlıq və əqli mülkiyyət sahəsində digər qeyri-qanuni əməllərin, fikirlərin ifadə edilmə azadlığı və nəşriyyat fəaliyyətinin azadlığına “yeri doldurulmaz ziyan vuran”, “əxlaqi baxımdan çirkin və hüquqi

cəhətdən qanuna zidd" hərəkətlər kimi səciyyələndirilmiş, belə əməllər "mədəni plagiat və ya mədəni dələduzluq" adlandırılmışdır.

İntellektual oğurluq, etnosun mədəni irsinin saxtalaşdırılması, onun mədəni ənənələrinin mənimsənilməsi və ya yanlış inkar edilməsi, başqa xalqın sərvətinə iddia edərək plagiatçılıq və saxtalaşdırma məsələləri, eyni zamanda mədəni müxtəliflik və mədəniyyətlərin dialoqu və qarşılıqlı fəaliyyəti, mədəniyyətlərin tolerantlığı və bərabər hüquqluluğunun qarşılıqlı tanınması, həmçinin bir mədəniyyətin digərini əxz etməsilə zənginləşməsi, bununla yeni yaradıcılığın və kreativliyin inkişafına yolun açılması, mədəni identiklik məsələləri də müraciətdə yer almışlar. Qeyd edilmişdir ki, etnik ənənələrin, eləcə də müəllif əsərlərinin elementlərinin biliklə zənginləşdirmə çərçivəsində əxz edilməsinə yol verilir, lakin o mütləq şərtlə ki, bu, əxz olunma mənbəyi və müəlliflik hüququnun etik və hüquqi qaydaları çərçivəsində istinadı nəzərdə tutsun. Əks halda bu cür plagiat oğurluğa, yaradıcıların şərəf və ləyaqətinə xələl gətirən özünəməxsus uydurmaya çevrilir və mahiyyət etibarilə başqa xalqlardan oğurluq etməklə onların hüquqlarına xələl gətirir.

Qeyd olunmuşdur ki, "bu cür plagiat eyni zamanda mənəvi terrordur, çünki o, həmin mənbələrin və onların yaradıcılarının mənəvi və psixoloji tapdanmasına, onların dəyərləri üzərində istehzaya, adət və ənənələrində təcəssüm olunmuş müqəddəs məfhumları üzərində təhqirlərə, onları mənimsəməyə və ya məhv etməyə gətirib çıxarır. Bu əməllərin həyata keçirilmə alətləri fiziki terror halında olduğu kimi fiziki zorakılıq vasitələri deyil, bir qayda olaraq, saxtalaşdırmalar, uydurmalar və aldatmalardır". Müraciətdə Azərbaycan Respublikası Prezidentinin 10 mart 2020-ci ildə altıncı çağırış Milli Məclisin ilk iclasında çıxışında səslənən "...biz Azərbaycan həqiqətlərini çatdırma-

lıyıq. Xüsusilə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir: Ona görə bizim arqumentlərimizə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində, onların xislətidir. Bəli həqiqətlər bundan ibarətdir və bizim borcumuz onları hər imkan olduğu halda dünyaya çatdırmaqdan ibarətdir" sözlərinə istinad edən İdarə Heyətinin sədri vurğulayıb ki, "Azərbaycanın mədəni ənənələrinin mənimsənilməsi üzrə erməni ənənəsi" məhz bu cür xarakter almışdır.

**26 aprel – Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə müraciətdə** İdarə Heyətinin sədri vurğulayır ki, bu günü müxtəlif tədbirlər silsiləsi ilə qeyd etməklə, əqli mülkiyyət hüquqlarının innovasiya və yaradıcılığın inkişafına necə töhfə verməsi barədə geniş ictimaiyyətə danışmaq imkanı əldə edilir, yaradıcılıq və yenilikçilik kimi təbii insan resurslarının ətraf dünyanın yaxşılaşdırmasına hansı yol ilə təsir etməsi barədə danışılır. Qeyd edilərək ki, ÜƏMT 2020-ci ildə diqqəti "yaşıl" gələcəyin təmin olunmasında innovasiyaların aparıcı roluna və onun fundamenti kimi əqli mülkiyyətə yönəltməyə tövsiyə edir, müraciətdə deyilir ki, "gələcəyimizin nə qədər "yaşıl" olacağı bizim məsuliyyətimizdən, bu gün qəbul etdiyimiz hər bir qərardan asılıdır, çünki məhz onlar sabahkı həyatımızı müəyyənləşdirirlər, və biz kollektiv təcrübəyə, ixtiraçılığa və kreativliyə əsaslanaraq, "yaşıl" bir gələcək yarada bilərik".

Müraciət müəllifi "yaşıl" gələcəyi quranlar qismində ixtiraçılar və müəlliflər, kişilər və qadınlar, mədən yanacağı və qida və təbii resursların daha səmərəli idarəetmə sisteminə əsaslanan ənənəvi texnologiyalar üçün daha "təmiz" alternativlər yaratmaq üzərində çalışan insanları

görür və davamlı milli innovasiya sistemlərinin yaradılmasına və səmərəli milli əqli mülkiyyət sistemlərinə əlçatanlığın təmin edilməsinə yönəlmiş səylərin bundan sonra da davam etdirilməsi vacibliyini bildirir.

Onun fikrincə, güclü və balanslaşdırılmış əqli mülkiyyət sistemi “yaşıl” iqtisadiyyatın inkişafını təşviq etmək və planetimizdə həyat təminatını dəstəkləmək iqtidarındadır: patent sistemi innovasiyaları və iqtisadi texnologiyaların yayılmasını dəstəkləyir, yaradıcı təfəkkür və sənaye nümunələrinin qorunması mexanizmləri isə faydalı, cəlbedici və sərfəli məhsulların yaradılmasında resurslardan optimal istifadəyə kömək edir, əmtəə nişanlarının və digər fərqləndirici nişanların qorunması sistemi müəssisələrin artmasına təsir göstərir və iqtisadiyyatın inkişafını dəstəkləyir, coğrafi göstəricilər ehtiyatların dayanıqlı istehlakına yardım edir, seleksiya hüquqları isə daha davamlı bitki sortlarının yetişdirilməsinə kömək edir və bununla da ərzaq təhlükəsizliyinə təsir göstərir, nəhayət, müəlliflər və müəllif hüququnun sahibləri "yaşıl" gələcək konsepsiyasının yaradılmasında rol oynayır, eyni zamanda biznes nümayəndələri – innovativ müəssisələr özlərinin innovativ məhsulları ilə "yaşıl" gələcəyi yaxınlaşdırırlar.

Azərbaycanda “yaşıl” patentlərlə bağlı vəziyyətə toxunan İdarə Heyətinin sədri bildirir ki, ölkədə ixtiraçılara 2010-cu ildən bəri “yaşıl” texnologiyalar əsasında verilən patentlər verilmiş ümumi patentlərin təxminən 3%-ni təşkil edir, bunlar əsasən alternativ enerji mənbələrinin işlənməsi ilə əlaqəli olan patentlərdir. O vurğulayır ki, 15 il ərzində ölkənin güclü iqtisadi inkişafına, iqtisadi artımda qeyri-neft sektorunun prioritetliyinə söykənərək, yaxın illərdə “yaşıl” iqtisadiyyat diqqət mərkəzində olmalı, "yaşıl" və "iqtisadi artım" anlayışları vahid cəbhədə Azərbaycanın inkişaf etmiş dövlətlər sırasına keçməsinə kömək etməlidir.

Müraciətdə əqli mülkiyyət və innovasiyaların əlaqəsi, əqli mülkiyyət hüquqlarının qorunması və təminatının investisiyaların cəlb edilməsində rolu, əqli mülkiyyət istifadəçilərini bu hüquqlardan istifadə edərkən qorunma normalarına və ölkəmizin bu sahədəki beynəlxalq öhdəliklərinə ciddi əməl etməsi, əqli mülkiyyət sahəsində aparılan islahatların ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin daha da möhkəmləndirilməsinə təsiri məsələlərinə diqqət çəkilir və vurğulanır ki, ölkənin əqli mülkiyyət sisteminin nailiyyətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin islahatlarının dərinləşdirilməsinin qiymətləndirilməsidir, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir, bir tərəfdən dövlət başçımızın iqtisadi strategiyasının doğru yolda olmasıdır, digər tərəfdən institusional islahatların həyata keçirilməsinin nəticəsidir.

Bununla yanaşı, maarifləndirici materialların nəşri və əhali arasında yayılması üzrə fəaliyyət davam etdirilmiş, ümumilikdə 500-ə yaxın nüsxədə kitab, kitabça və broşuralar buraxılmış, çoxsaylı maarifləndirici materiallar, o cümlədən müəllif-hüquq sahəsi üzrə beynəlxalq konvensiya və müqavilələr, milli qanunvericilik aktları, digər normativ aktlar Azərbaycan, rus və ingilis dillərində təkrar nəşr edilərək yayılmışdır. Həmçinin cari ildə Əqli Mülkiyyət Agentliyinin  ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilər barədə məlumatların dərc olunduğu “Sənaye mülkiyyəti” bülleteninin 12 nömrəsi nəşr edilmişdir.

Hesabat ilində əqli mülkiyyət hüquqları sahəsində hüquqi maarifləndirmə işinin aparılması siyasəti istiqamətində Əqli Mülkiyyət Agentliyinin nümayəndələri bir sıra konfrans və seminarlarda iştirak edərək, təqdimatlarla çıxış ediblər, o cümlədən 27 fevral tarixində Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) “Elm aylığı”nın keçirilməsi ilə əlaqədar olaraq "Universitetlərdə akademik

tədqiqatların kommersiyalaşması: beynəlxalq reallıqlar və yeni çağırışlar" mövzusunda elmi-praktiki konfransda “Əqli mülkiyyət və elmi-tədqiqat işlərinin kommersiyalaşması”, 2 mart tarixində ƏMA və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə hakim vəzifəsinə namizədlər üçün tədris kursu çərçivəsində keçirilən "Əqli mülkiyyət hüquqlarının qorunması və hüquqi təminatı" mövzusunda seminarda “Əqli mülkiyyət müasir mərhələdə (hüquqların qorunması və təminatı)” adlı təqdimatlar.

Gənc nəslin ƏM sahəsinə maraqlarının artırılması məqsədilə “Gələcəyə baxış” devizi altında Avrasiya patent universiadasının keçirilməsi ilə əlaqədar ölkəmizin ali təhsil müəssisələrində, ümumtəhsil məktəblərində və peşə liseylərində calışan istedadlı gənclər və təhsil alan tələbələrin həmin universiadada iştirakı ilə bağlı zəruri işlər görülmüş, Azərbaycanın ali və ümumtəhsil müəssisələrini təmsil edən 37 nəfər müəllifin 24 layihəsi Universiadanın Təşkilat Komitəsinə göndərilmişdir. 1 nəfər 1-ci yer, 2 nəfər 2-ci yer və 2 nəfər 3-cü yer tutmuşdur. Arasiya Patent İdarəsi tərəfindən “Gələcəyə baxış” devizi altında keçirilmiş Avrasiya Patent Universiadasının azərbaycanlı qalibləri ilə 2020-ci ilin yanvar ayında Agentlikdə görüş keçirilmişdir.

2021-ci ildə də keçirilməsi planlaşdırılan Universiadada 18-25 yaş arasında olan təhsil müəssisələrinin tələbələrin, habelə ixtiraçılığa meyl göstərən gənclərin iştirakının təmin edilməsi istiqamətində hal-hazırda müvafiq iş aparılır.

Bununla yanaşı, sənaye mülkiyyəti obyektləri sahəsində mütəxəssislərin bilik və bacarıqlarının artırılması, habelə iddiaçıların, müəlliflərin və patent məsələləri ilə maraqlanan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi, ixtisaslı kadrların hazırlanması və peşə ixtisasının artırıl-

ması məqsədilə tədbirlər həyata keçirilmişdir. Bu çərçivədə Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi və Təhsil Nazirliyi Uşaq Gənclər Yaradıcılıq İnkişaf Mərkəzinin birgə layihələri olan yuxarı sinif şagirdləri və tələbə gənclər üçün "Böyük İXTİRA üçün lazım olan hər şey sizin daxilinizdə yerləşir" və 8–14 yaş həddində olan şagirdlər üçün nəzərdə tutulan "YARADICI ideyalara həyat bəxş edin" mövzusunda təqdimatlar əhəmiyyətli olmuşdur.

Hazırda Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi tərəfindən sənaye mülkiyyəti obyektləri sahəsində mütəxəssislərin bilik və bacarıqlarının artırılması, habelə iddiaçıların, müəlliflərin və patent məsələləri ilə maraqlanan hüquqi və fiziki şəxslərin maarifləndirilməsi, ixtisaslı kadrların hazırlanması və peşə ixtisasının artırılması məqsədilə aşağıda adları qeyd edilən tədbirlərin həyata keçirilməsi üçün hazırlıq işləri aparılmışdır:

- "İxtira, faydalı model və sənaye nümunələrinin qeydiyyatı: iddia sənədlərinin tərtibi, təqdim edilməsi, ekspertizası və qeydiyyatdan keçirilmiş sənaye mülkiyyəti obyektlərinin hüquqi mühafizəsi" mövzusunda təlimlərin təşkili;
- "Əmtəə nişanı və coğrafi göstəricilərin qeydiyyata alınması və mühafizəsi mövzusunda təlimlərin kurslarının təşkili;
- Əmtəə nişanlarının və coğrafi göstəricilərin ekspertizasının aparılması qaydası üzrə ekspertlər üçün təlim kursunun kurslarının təşkili.

Agentliyin iki nəfər əməkdaşı Rusiya Federasiyası Dövlət Əqli Mülkiyyət Akademiyasında ixtisasartırma kursunda təhsillərini başa vuraraq müvafiq diplomlar almışlar. Eyni zamanda ekspertlərin hazırlığının yüksəldilməsi istiqamətində Agentliyin əməkdaşları ÜƏMT tərəfindən keçirilən vebinarlarda iştiraka cəlb olunmuşlar.

Eyni zamanda ekspertlərin hazırlığının yüksəldilməsi istiqamətində Mərkəzin əməkdaşları ÜƏMT tərəfindən keçirilən vebinarlarda iştiraka cəlb olunur. Cari ildə "ÜƏMT-nın xidmətləri və təşəbbüsləri", "Haaqa sistemi", "Lissabon sistemi", "Madris sistemi" mövzularında keçirilmiş vebinarlarda Mərkəzin ekspertlərinin iştirakı təmin edilmişdir. Eyni zamanda Mərkəzdə fəaliyyət göstərən Təlim Mərkəzinin inkişaf etdirilməsi üçün ÜƏMT-nin Akademiyası ilə sıx əməkdaşlıq edilir və bu əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

**7. Mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə.** Mədəni irsin qorunması və erməni plagiatına qarşı mübarizə tədbirləri daim Agentliyin diqqət mərkəzində saxlanılır, mütəmadi olaraq Azərbaycan xalqına məxsus olan müəllif əsərlərinin, ənənəvi mədəni (folklor) nümunələrin, ənənəvi biliklərinin və digər qeyri-maddi mədəni irs nümunələrinin uzun illərdən bəri ermənilər tərəfindən zaman-zaman oğurlanması, mənimsənilməsi və erməni nümunələri kimi təqdim olunması hallarına qarşı tədbirlər görülür, hər bir hal üzrə bu əsərlərin xalqımıza məxsusluğuna dair mütəxəssislərin rəyləri, sübutedici sənədlər və tarixi mənbələrə istinadən təkzib edilməz faktlara əsaslanan arayışlar hazırlanır, kütləvi informasiya vasitələrində yayılır, Agentliyin nümayəndələrinin iştirak etdiyi yerli və beynəlxalq tədbirlərdə bu barədə ətraflı məlumatlar verilir, ÜƏMT-a müvafiq məktublar göndərilir. Hesabat ilində də mədəni irsimizin, xüsusən erməniçilik tərəfindən mənimsənilməsi və saxtalaşdırılması cəhdlərinin qarşısının alınması və belə əməllərin ifşa edilməsi istiqamətində fəaliyyət prioritet məsələlərdən olmuşdur.

Bu çərçivədə görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun vərəsələri Agentliyə müraciət edərək, onun

“Kor ərəbin mahnısı” əsərinin musiqisinin Belçikada yaşayan erməni mənşəli Vardan Hovanissian və musiqiçi Emre Gültekin tərəfindən mənimsənildiyini və “Houcher” adı altında “Karin” musiqi albomuna daxil edilərək Youtube kanalında yayıldığını bildirmiş, bununla bağlı müəllifin pozulmuş hüquqlarının bərpa olunmasını və hüquq pozucularına münasibətdə tədbir görülməsini xahiş etmişlər. Məsələ ilə bağlı Agentliyin ekspertləri tərəfindən aparılmış müvafiq araşdırma nəticəsində müəyyən edilmişdir ki, “Karin” musiqi albomuna “Houcher” adı ilə daxil edilən musiqi əsəri F.Əmirovun “Kor ərəbin mahnısı” əsərinin musiqisi ilə üst-üstə düşür. Başqa sözlərlə, “Houcher” musiqi əsəri plagiatdır və onun bu şəkildə istifadəsilə F.Əmirovun hüquqları kobud şəkildə pozulmuşdur.

Bununla yanaşı, Vardan Hovanissian və Emre Gültekin tərəfindən www.bandcamp.com saytındakı səhifələrində yerləşdirilmiş “Karin” musiqi albomuna daxil edilmiş əsərlər haqqında verilən məlumatda F. Əmirovun adı göstərilməmiş, “Kor ərəbin mahnısı” əsəri isə təhrif olunmuş “Houcher” adı ilə folklor nümunəsi kimi təqdim edilərək, aranjemançı kimi V. Hovanissian və E.Gültekin göstərilmişdir. Digər tərəfdən, “Karin” musiqi albomu www.bandcamp.com saytında kommersiya məqsədilə yerləşdirilmişdir. Bununla F.Əmirovun şəxsi və əmlak hüquqları bir daha pozulmuşdur. Bu hərəkətlər Azərbaycanın milli qanunvericiliyin müddəaları ilə yanaşı, həm də Azərbaycan və Belçikanın üzvü olduğu ÜƏMT-nı təsis edən Konvensiyanın 3-cü maddəsinin, eləcə də Azərbaycan və Belçikanın iştirakçısı olduqları “Ədəbi və bədii əsərlərin qorunması haqqında” Bern Konvensiyasının, ÜƏMT-nın Müəlliflik Hüququna dair Müqaviləsinin və İfalar və Fonoqramlara dair Müqaviləsinin müddəalarının pozulmasıdır.

Yuxarıda qeyd edilən hüquq pozuntularının aradan qaldırılması tələbi ilə Agentlik tərəfindən V.Hovanissian və E.Gültekinə xəbərdarlıq məktubu göndərilmiş, həmçinin Youtube kanalında yerləşdirilmiş “Houcher” adlı musiqi əsərinin Youtube kanalından çıxarılması tələbi ilə həmin kanalın Administrasiyasına müraciət edilmişdir. Nəticə etibarilə ilə həmin şirkətdən Agentliyə daxil olmuş məktublarda şirkətin rəhbərliyi Azərbaycan tərəfindən üzr istəmiş və bu musiqinin ənənəvi mədəni nümunə (folklor nümunəsi) musiqisi zənn etdiklərinə görə istifadə etdiklərini bildirərək, səhvləri düzəltməyə və bunun üçün bütün zəruri işləri görməyə hazır olduqlarını qeyd etmişlər. Hazırda albomun satışı dayandırılmış və başqa adla oraya daxil edilmiş “Kor ərəbin mahnısı” albomdan çıxarılmışdır. Hazırda pozulmuş hüquqların tam bərpası üçün F.Əmirovun vərəsələrinə hüquqi yardımların edilməsi davam etdirilir.

Bununla yanaşı, görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyevin vərəsəsi Eldar Quliyevin Agentliyə müraciəti əsasında atası T.Quliyevin “Sənə də qalmaz” əsərinin musiqisinin Alban müğənnisi Roveno Dilo tərəfindən “Ne Shkoder te vish” adı altında “Ante” musiqi albomuna daxil edilərək Youtube kanalında yerləşdirilməklə bağlı müəllifin pozulmuş hüquqlarının bərpası üzrə tədbirlər görülmüş, nəticə olaraq, Tofiq Quliyevin pozulmuş hüquqları bərpa edilmişdir.

Azərbaycanın tanınmış bəstəkarı Elza İbrahimovanın vərəsəsi Çingiz İbrahimov Agentliyə müraciət edərək, “Youtube” Portalında E.İbrahimovanın adına açılmış kanalın “WediaCorp Azərbaycan” şirkəti tərəfindən “Youtube” portalına etdiyi şikayətlər əsasında bağlanıldığını bildirmiş və bununla bağlı köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə əlaqədar Agentlik tərəfindən araşdırma aparılmış və görülən tədbirlər nəticəsində E.İbrahi-

movanın adına açılmış kanalın yenidən açılmasına nail olunmuşdur. Ç.İbrahimov məsələnin operativ və müsbət həll olunmasında göstərdiyi köməyə görə Agentliyə öz minnətdarlığını bildirmişdir. Bununla əlaqədar İctimai Televiziyada 2020-ci il 11 və 21 may tarixlərində efirə getmiş "Sabaha saxlamayaq" verilişində ətraflı məlumat verilmişdir.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında noyabrın 6-da onlayn rejimdə "Azərbaycan musiqisinə qarşı aparılan işğalçılıq siyasətinə dair" mövzusunda beynəlxalq konfrans-konsert keçirilmişdir. Tədbirdə Bakı Musiqi Akademiyasının professor-müəllimləri və mütəxəssisləri, dövlət qurumlarının nümayəndələri, yaradıcı gənclər, ABŞ, Almaniya, Türkiyə, Rusiya, Ukrayna, Qırğızıstan və başqa ölkələrdən alim-mütəxəssislər, ictimaiyyət fəalları iştirak etmişlər. Konfransda Agentliyin nümayəndələri iştirak və çıxış etmiş, Agentlik tərəfindən erməni plagiatına qarşı aparılan işlər barədə məlumat vermişlər.

İl ərzində digər hüquq pozuntularının da aradan qaldırılması diqqətdə saxlanılmış, zəruri tədbirlər həyata keçirilmiş, həmçinin Erməni saxtakarlıqlarını ifşa edən tədbirlərin davamı olaraq, "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Армянский геноцид" или армянский террор?", "Erməni tarixi uydurmalarının tarixinə giriş", "Öz-özünü təkzib edən "erməniçiliyin müəllif hüququ", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" və s. kitabçalar, həmçinin "Erməni yadelli nağılları" kitabı və "Gəldim, gördüm..., mənimsədim" kitabçası (Azərbaycan, rus, ingilis və fransız dillərində) təkrar nəşr edilərək yayılmışdır.

**8. Elektron xidmətlərin təşkili.** Azərbaycan Respublikası Prezidentinin "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi

sahəsində tədbirlər haqqında” 2019-cu il 03 iyun tarixli 718 nömrəli Fərmanının aidiyyəti üzrə icrası ilə əlaqədar, Agentliyin  informasiya sistemlərinin və ehtiyatlarının “Hökumət buludu”nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsini, o cümlədən elektron xidmətlərin təşkilini və göstərilməsini təmin etmək və Agentliyin “Elektron Hökumət” portalına inteqrasiya olunmuş elektron xidmətlərinin dayanıqlığını təmin etmək üçün Müəllif hüquqlarının qeydiyyatı və Nəzarət markaları ilə əlaqəli xidmətlərin serverləri “AzInTelecom” MMC tərəfindən “Hökumət buludu”nun (G-cloud) yaradılması məqsədi ilə istismara verilmiş "AZCLOUD" data mərkəzinə köçürülmüşdür.

Agentliyin göstərdiyi xidmətlərdən 19-u eyni zamanda Dövlət Xidmətləri Portalı üzərindən həyata keçirilir. Bu xidmətlərdən 13-ü elektronlaşdırılıb və Elektron Hökumət Portalı vasitəsilə elektron xidmətlər şəklində göstərilir. Qeyd edilən xidmətlərin il ərzində fasiləsiz fəaliyyət göstərməsi təmin edilmişdir.

Elektron xidmətlərin dairəsinin genişləndirilməsi məqsədilə il ərzində Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin göstərdiyi xidmətlərin bir hissəsinin “Elektron hökumət” portalında göstərilməsi təmin edilmiş, Respublika Elmi-Texniki Kitabxanasının göstərdiyi xidmətlərin bir qismiin elektron qaydada göstərilməsi üzrə tədbirlər davam etdirilmiş, Agentliyin göstərdiyi elektron xidmətlərdən yararlanan şəxslərin “Elektron hökumət” portalının imkanlarından istifadə etməsi üçün təbliğat, təşviqat və maarifləndirmə işləri aparılmışdır.

Ümumiyyətlə, Agentliyin Aparatında və tabeli qurumlarda Elektron sənəd dövriyyəsi tətbiq olunmuş, kargüzarlıq tam avtomatlaşdırılmış, məlumat mübadiləsi zamanı təhlükəsizliyinin təmin ounması ilə əlaqədar zəruri işlər görülmüş, informasiya təhlükəsizliyinin təmin olun-

ması məqsədilə əməkdaşlar maarifləndirilmişdir. İnteqrasiya məsələləri ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq edilir.

**9. Beynəlxalq əməkdaşlıq.** Əqli mülkiyyət sisteminin dünya iqtisadi bazarının tərkib hissəsi olması ölkəmiz üzrə bu sahənin inkişafının təmin olunmasını və idarəçiliyini həyata keçirən Agentlik üçün beynəlxalq aləmdə, o cümlədən ikitərəfli səviyyədə sahəvi proseslərin fəal iştirakçısı kimi çıxış etməsini labüd edir.

COVİD-19 virusu pandemiyasının daimi bilavasitə ünsiyyət və əlaqələr qurmağı tələb edən beynəlxalq münasibətlər sisteminə ciddi mənfi təsirinə baxmayaraq, hesabat ilində Agentlik beynəlxalq müstəvidə özünün əlaqələrini mümkün qədər qorumuş, yeni texniki-texnoloji üsulların verdiyi imkanları tətbiq edərək tərəf müqabilləri ilə, sahə üzrə idarəetmə fəaliyyətini həyata keçirən beynəlxalq təşkilatlar – ÜƏMT və APT da daxil olmaqla, əməkdaşlıq münasibətlərini daha da dərinləşdirmişdir.

Agentlik əqli mülkiyyət sahəsinin iki qolu olan müəlliflik hüququ və sənaye mülkiyyəti hüquqları sahələri və onlarla əlaqəli digər sahələr üzrə beynəlxalq və regional statuslu layihə və tədbirlərin reallaşdırılması istiqamətində tərəfdaşları ilə birlikdə fəaliyyət göstərmiş, sahəvi normativ-hüquqi bazanın genişləndirilməsi məqsədi ilə çoxtərəfli və ikitərəfli beynəlxalq sənədlərin qəbul olunmasını, mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün beynəlxalq təcrübə mübadiləsindən yararlanmasını təşviq etmişdir.

İlk növbədə diqqət ÜƏMT ilə və bu təşkilatın çərçivəsində müxtəlif ölkələrlə yaradılmış faydalı əməkdaşlığın davam etdirilməsinə, təşkilatın Baş Assambleyası və Dai-

mi Komitələrində, keçirdiyi tədbirlərdə iştirakla ölkəmizin mənafe və maraqlarının təmin edilməsinə verilmişdir.

Cari ilin 21-25 sentyabr tarixlərində İsveçrə Konfederasiyasının Cenevrə şəhərində ÜƏMT üzv-dövlətlərinin Assambleyalarının 61-ci sessiyası keçirilmişdir. COVID-19 infeksiyası ilə əlaqədar builki iclaslar Təşkilatın ÜƏMT tarixində ilk dəfə olaraq hibrid rejimdə keçirilmişdir: nümayəndələrin bir qisminin iştirakı bilavasitə Cenevrədəki diplomatik missiyalarının əməkdaşları tərəfindən təmin edilmiş, digər nümayəndələr tədbirlərə onlayn rejimdə qoşulmuşlar.

Ölkəmizi təmsil edən nümayəndə heyəti də bu tədbirə hibrid rejimdə qoşulmuşdur: Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinə daxil olan təşkilatın nümayəndələri onlayn rejimdə, Azərbaycan Respublikasının Cenevrədəki BMT və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin əməkdaşları, o cümlədən Səfir Vaqif Sadıqov fiziki olaraq iştirk etmişlər.

ÜƏMT-nın yeni seçilmiş Baş direktoru Daren Tang tədbirdə çıxış edərək F.Qarrinin Təşkilatın rəhbəri vəzifəsində çalışdığı müddətdə qazandığı "parlaq nəticələrə" görə "səmimi heyranlığını" qeyd edib, məhz onun qoyduğu təməllər sayəsində gələcəyin çox ümidverici göründüyünü və Təşkilatın yeni mərhələdə bu işin davam etdirə biləcəyini səbirsizliklə gözlədiyini bildirib.

Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Baş Assambleyanın plenar iclasına xüsusi platforma vasitəsilə onlayn rejimdə qatılaraq, fransız dilində reqlament çərçivəsində çıxış edib. Azərbaycan Respublikasının nümayəndə heyətinin adından tədbirin iştirakçılarını salamlayan Agentliyin rəhbəri çıxışında qeyd etmişdir ki, “dünya dəyişir və bəzən dəyişikliklərin dialektikası tamamilə gözlənilməz fors-major şəraitin seytnot vəziyyətində mühüm

qərarların qəbul edilməsini diktə edir”. “COVİD-19 pandemiyası bütün sosial institutlara toxunub, sabit əlaqələri sarsıdıb, yeni ünsiyyət və qarşılıqlı əlaqə formalarını qəbul elətdirib, ən acınacaqlısı isə, öz əməyi ilə mədəniyyət və sivilizasiyaların dəyərlərini yaradan çox sayda insanın həyatını alıb”. O, ölkə rəhbərliyinin belə şəraitdə yüksək idarəçilik məharətini, vaxtında qəbul edilmiş qərarlarını qeyd edib. Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş “COVID-19-a qarşı birlikdəyik” mövzusunda Zirvə görüşündə ifadə etdiyi “Biz birlikdə pandemiyaya qalib gələcəyik” fikrini xüsusilə vurğulayıb. Agentliyin əsas məqsədinin ölkə rəhbərliyi tərəfindən həyata keçirilən iqtisadi islahatların təşviq edilməsi olduğunu, əqli mülkiyyətin iqtisadi artımın fəal iştirakçısına çevrilməsini vurğulayan Agentliyin rəhbəri ölkəmizdə patent fəaliyyətini sürətləndirmək və bu sahədə şəffaflığı təmin etmək məqsədilə yeni rəqəmsal xidmətlər tətbiq edildiyini, rəqəmsal əqli mülkiyyət hüquqlarının qorunması üçün yeni sistemlərin hazırlandığını bildirib. Çıxışının sonunda o, ÜƏMT-nın Baş direktoru vəzifəsində fəaliyyətini başa vuran cənab Frensis Qarriyə təşəkkürünü çatdıraraq, onun özünəməxsus peşəkarlığı, işgüzarlığı və yüksək mədəniyyətinin bu Təşkilat çərçivəsində bir çox başlanğıcların müvəffəqiyyətinin açarı olduğunu qeyd edib. Agentliyin rəhbəri həmçinin ÜƏMT-nın yeni Baş direktoru seçilən cənab Daren Tanqı təbrik edib, bu vəzifədə onun Təşkilatın mandat və məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verəcəyinə, əqli mülkiyyət hüquqlarının qorunması üzrə qlobal sistemin yaradılması vasitəsilə yenilik və yaradıcılığı təşviq edəcəyinə əminliyini vurğulayıb, Azərbaycanın bu fəaliyyətdə ona dəstək və əməkdaşlığa zəmanət verdiyini bildirib.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Cenevrədəki BMT və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəsi Vaqif Sadıqov ölkəmizin sədri olan Qoşulmama Hərəkatının 116 üzv-dövləti adından çıxış edərək, ÜƏMT-nın İnkişaf Gündəliyinin nəzərdə tutduğu 45 Tövsiyələrin yaradıcılıq və innovasiyanın təşviq edilməsi vasitəsilə səmərəli icrası, inkişaf etməkdə olan ölkələri narahat edən məsələlər, xüsusilə qabaqcıl texniki dəstəyin səfərbər edilməsi üzrə işlərin davam etdirilməsinin vacibliyini vurğulamışdır.

Hesabat ilində Agentliyin nümayəndələri ÜƏMT bölmələrinin, o cümlədən təşkilatın Müəllif Hüquqları və Əlaqəli Hüquqlar üzrə Daimi Komitəsinin, Patent Hüququ üzrə Daimi Komitəsinin, Əqli mülkiyyət və genetik resurslar, ənənəvi biliklər və folklor üzrə Hökumətlərarası Komitəsinin, Proqram və Büdcə Komitəsinin, İqtisadiyyat və Statistika bölməsinin hibrid reyimdə keçirilən sessiyalarında onlayn qaydada iştirak etmiş, bu tədbirlərdə müzakirə edilən beynəlxalq sənədlərdə əks olunması üçün ölkəmizin mövqeyinə uyğun təkliflər irəli sürmüşlər.

Agentliyin əməkdaşları ÜƏMT xətti ilə onlayn rejimdə keçirilən bir sıra beynəlxalq konfrans və seminarlarda, o cümlədən müasir dövr üçün xüsusi əhəmiyyət kəsb edən süni intellektə həsr olunan müzakirələrin il ərzində ardıcıl keçirilmiş üç sessiyasında, eləcə də beynəlxalq distant təlimlərdə iştirak etmiş, həmin təlimlərin sertifikatlarına layiq görülmüşlər. Qeyd edilən müzakirələr zamanı bu mötəbər tədbirdə “Süni intellekt və əqli mülkiyyətin idarəolunması sahəsində Azərbaycan təcrübəsi” mövzusunda məruzə təqdim edilib, Agentliyin nümayəndəsi ölkəmizdə əqi mülkiyyət sahəsində aparılan son islahatlar, Agentlik tərəfindən tətbiq edilən “Patent, Əmtəə Nişanlarına Açıq Hədəf” (PƏNAH) rəqəmli informasiya sisteminin fəaliyyəti və "Patent ekspertizası prosesi zamanı ekspert

qərarlarını dəstəkləyən informasiya sistemi" layihəsi haqqında ətraflı məlumat verib.

ÜƏMT ilə əməkdaşlığın inkişaf etdirilməsi, o cümlədən yeni ikitərəfli Tədbirlər Planının hazırlanması, patent analitikası sisteminin inkişafı, Azərbaycanda yaradılacaq texnologiyaların kommersiyalaşdırılması və transferi mərkəzləri və  Ümumdünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzinin fəaliyyətlərinin ÜƏMT tərəfindən dəstəklənməsi, innovativ inkişafda süni intellekt və onun tətbiqi məsələləri Agentliyin yaxın gələcək üçün bu təşkilatla əməkdaşlığının gündəliyini təşkil edərək, hazırda onun müvafiq qurumları ilə işçi qaydada müzakirə edilirlər.

Bunlarla yanaşı, qeyd edirik ki, ÜƏMT-nın Baş direktoru F.Qarrinin 2018-ci ildə ölkəmizə səfəri çərçivəsində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında Anlaşma Memorandumu”nun icrası çərçivəsində 2020-ci ildə bu Təşkilatla birgə əməkdaşlıqda 3 beynəlxalq tədbirin - “Əqli mülkiyyət və innovasiyalı iqtisadiyyat: kreativ sənayenin iqtisadiyyatın inkişafında rolu” adlı milli seminar, “Əqli mülkiyyət və süni intellekt: ziddiyyətlər və perspektivlər” adlı subregional seminar və “Patent qanunvericiliyinin təkmilləşdirilməsi: müasir tendensiyalar” adlı milli seminar – keçirilməsi barədə razılıq əldə edilmiş və bu tədbirlər ÜƏMT-nın illik Fəaliyyət Planına daxil edilmişdir, lakin pandemiya ilə əlaqədar onların keçirilməsi mümkün olmamışdır. Bu tədbirlərin 2021-ci ildə reallaşdırılması barədə Təşkilatın müvafiq qurumları ilə işçi qaydada razılığa gəlinmişdir.

Qeyd edək ki, Azərbaycan ÜƏMT-nın fəaliyyətinin inzibati, maliyyə, o cümlədən büdcə xərclərinin müəyyən edilməsində xüsusi əhəmiyyəti olan, Təşkilatın Baş Assambleyasının gündəliyinin, onun Konfransının proqram

və büdcəsinin layihələrini hazırlayan, Baş direktorun seçilməsi üçün namizədi Baş Assambleyaya təqdim edən Koordinasiya Komitəsinin və təşkilatın maliyyə xərclərinin audit və nəzarətini həyata keçirən, onun fəaliyyətinin nəticələrinin və maliyyə vəziyyətinin icmalını hazırlayan, büdcəsini planlaşdıran və tərtib edən Proqram və Büdcə Komitəsinin üzvü seçilmişdir.

Azərbaycanın nümayəndələrinin beynəlxalq təşkilatlarda təmsil olunması siyasətini həyata keçirərək, Agentliyin rəhbəri ÜƏMT-nın Baş direktoru ilə qurulan münasibətlər nəticəsində təşkilatın Katibliyində ölkəmizin nümayəndəsinin təmsil olunmasına da nail olmuşdur.

Hesabat ilində Agentlik Avrasiya Patent Təşkilatı (APT) ilə əlaqələrin inkişaf etdirilməsi istiqamətində fəaliyyətini davam etmiş, əməkdaşlıq cərcivəsində Agentliyin nümayəndələri hesabat ilində APT-nın bir neçə tədbirində iştirak etmişlər.

O cümlədən, Avrasiya Patent Konvensiyasının (APK) üzv-dövlətlərinin sənaye nümunələrinin hüquqi qorunması üzrə Avrasiya sisteminin yaradılması üzrə video-konfrans formatında keçirilən iclasında APK-nın Patent Təlimatının “Sənaye nümunələri” hissəsində və APT-nın “Rüsumlar haqqında” Əsasnaməsində sənaye nümunələri ilə bağlı layihələr müzakirə edilib, ekspert səviyyəsində razılaşdırılmışdır.

10-11 sentyabr tarixlərində APT-nın İnzibati Şurasının video-konfrans formatında otuz altıncı iclası keçirilmişdir. İclasın gedişatında sənaye nümunələrinin hüquqi qorunması üzrə Avrasiya sisteminin yaradılması layihəsinin həyata keçirilməsinin vəziyyəti, APT tərəfindən “Patent kooperasiyası haqqında” Müqaviləyə əsasən beynəlxalq axtarış orqanı və beynəlxalq ilkin ekspertiza orqanı statusunun istənilməsi, APK Maliyyə təlimatının yenilənməsi, APT çərçivəsində mübahisələrin baxılması prose-

durunun təkmilləşdirilməsi və digər məsələlər müzakirə olunmuş, “Patent kooperasiyası haqqında” Müqavilə ilə uyğunlaşma məqsədilə APK-nın Patent Təlimatına və APT-nın Rüsumlar haqqında Əsasnaməsinə dəyişikliklər edilmişdir.

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının APT-nın İnzibati Şurasındakı səlahiyyətli nümayəndəsi, Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri müzakirə olunan məsələlərlə əlaqədar ölkəmizin müvafiq maraqlarına uyğun təkliflər vermiş, onların qəbul olunmasına nail olmuşdur.

APT-nın ÜƏMT ilə birlikdə onlayn rejimdə keçirdiyi Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələrində əqli mülkiyyətin kommersiyalaşmasının problemlərinə dair regional vebinar  texnologiyaların kommersializasiyası və bu məqsədlə innovasiya mərkəzlərinin (texnologiya parklarının, biznes-inkubatorların) inkişafı, onların müasir infrastrukturunun yaradılması, patent təşkilatları ilə qarşılıqlı əlaqələri, texnologiya və ixtiraların hüquqi qorunmasının müasir formalarının təşkili, biznes və sərmayəçilərin əməkdaşlığa cəlb edilməsi məsələlərinə həsr edilmişdir.

Agentliyin İdarə heyətinin sədri tədbirdə geniş çıxış etmiş və yuxarıda qeyq edilən məsələlərə dair münasibətini bildirmişdir. O, “iqtisadiyyatın inkişafı – innovasiyaların tətbiqi – texnologiyaların kommersializasiyası – insan kapitalı – texnoloji, intellektual, informasiya renta” zəncirinin məntiqi qaşılıqlı əlaqə və məzmununu açmış, qeyd etmişdir ki, kommersializasiya, yəni innovasiya məhsullarının istehlak bazarına çıxarılması olmadan əqli mülkiyyətin sinergetik effekti mümkün deyil, bu institutun emercentliyi yaranmır, bu baxımdan kommersializasiya iqtisadi artımın labüd bəndidir. Vurğulamışdır ki, əqli mülkiyyətin iqtisadi artımın aparıcı aktoruna çevrilməsi üçün ilk növbədə 1) innovator şəxslərin, 2) ideyaların layihə, model, təcrübi və

sənaye nümunələrinə çevrilməsinə dəstək verən təşkilatların, 3) istehsalı və innovativ məhsulların ilkin yayılmasını təmin edən texnoloji strukturların mövcudluğu və 4) innovasiya diffuziyası adlanan geniş istehsalın və bazarın ələ alınması zəruridir.

Onu da qeyd edək ki, 2020-ci il 9 dekabr tarixində ÜƏMT-nın Cenevrədəki mənzil-qərargahında Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Vaqif Sadıqov Azərbaycan Respublikası tərəfindən "1994-cü il 9 sentyabr tarixli Avrasiya Patent Konvensiyası üzrə sənaye nümunələrinin mühafizəsinə dair Protokol"un təsdiqlənməsi haqqında sənədi ÜƏMT-nın Baş direktoru Daren Tanqa təqdim edib. Tədbirdə APT prezidenti Saule Tlevlessova iştirak etmişdir.

"Avrasiya Patent Konvensiyasına sənaye nümunələrinin mühafizəsinə dair Protokol" 2019-cu ildə Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində keçirilmiş Diplomatik konfransda qəbul edilmişdir. O, vahid Avrasiya patenti əsasında sənaye nümunəsinin APT-nın 8 üzv ölkə ərazisində qorunmasını nəzərdə tutur.

Ümumilikdə, Protokol Azərbaycan xalqının (eləcə də bu sənədi imzalamış digər ölkələrin) mədəni irsinin hər hansı formada sənaye nümunəsi kimi mənimsənilməsinin qarşısının alınmasına şərait yaradır. Bununla yanaşı, vahid Avrasiya patenti əsasında qorunan sənaye nümunəsinin mühafizəsi ilə bağlı rüsum və ödənişlər ölkəyə daxil olan gəlirlərin həcminin artmasında müəyyən yer tutacaq. Eyni zamanda, Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri vahid iddia sənədi əsasında və vahid orqana rüsum və ödənişlər ödəməklə, APT üzv ölkə ərazilərində onlara məxsus sənaye nümunələrinin hüquqi mühafizəsinə və daha asan marketinqinə nail olacaqlar.

2020-ci il 4 noyabr tarixində ÜƏMT-nın təşkilatçılığı ilə "Əqli mülkiyyət və süni intellekt üzrə müzakirələr"in üçüncü sessiyası keçirilib. Hibrid formatda təşkil olunan bu tədbirdə əsasən əqli mülkiyyət və süni intellekt ilə bağlı anlayışlar, əmtəə nişanları, potensialın artırılması və əqli mülkiyyətin idarə olunmasında qəbul edilən qərarlara görə məsuliyyət məsələləri müzakirə olunub.

Əqli Mülkiyyət Agentliyinin 3 nəfər əməkdaşı tədbirə onlayn rejimdə qatılıblar. Müzakirələr zamanı Agentliyin əməkdaşının "Süni intellekt və əqli mülkiyyətin idarəolunması sahəsində Azərbaycan təcrübəsi" mövzusunda məruzəsi dinlənilib. Agentliyin nümayəndəsi ölkəmizdə əqi mülkiyyət sahəsində aparılan son islahatlar, Agentlik tərəfindən tətbiq edilən "Patent, Əmtəə Nişanlarına Açıq Hədəf" (PƏNAH) rəqəmli informasiya sisteminin fəaliyyəti və planlaşdrılan "Patent ekspertizası prosesi zamanı ekspert qərarlarını dəstəkləyən informasiya sistemi" layihəsi haqqında ətraflı məlumat verib.

Hesabat ilində Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sisteminin inkişafı ilə əlaqədar aparılan işlər çərçivəsində Agentlik həmçinin Avropa Komissiyası tərəfindən təqdim edilmiş "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında Strateji Tərəfdaşlıq haqqında Saziş" layihəsinin iqtisadi bloku üzrə İşçi qrupun üzvü qismində sənədin "Ticarət, sərmayə, enerji ticarəti məsələləri" hissəsinin "Əqli mülkiyyət" fəslinin müvafiq müddəalarının mətnlərinin razılaşdırılması prosesinə cəlb olunmuşdur.

Bu çərçivədə Agentliyin nümayəndələri Avropa Komissiyasının aidiyyəti nümayəndələri ilə mütəmadi olaraq müxtəlif formatlı, o cümlədən video-konfranslar vasitəsi ilə və onlayn rejimdə aparılan müzakirələrdə, həmçinin danışıqlar zamanı ölkəmizin vahid mövqeyinin formalaşdırılması ilə bağlı Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən keçirilən tədbirlərdə iştirak etmişlər.

Ticarət, iqtisadi və əlaqədar hüquqi məsələlər üzrə Aİ-Azərbaycan alt komitəsinin 2020-ci il 17 fevral tarixində Brüssel şəhərində keçirilmiş 17-ci iclasında əqli mülkiyyət hüquqlarını pozan mallara və saxta məhsullara qarşı sərhəd nəzarətinin gücləndirilməsi, tükənmə rejimi ilə bağlı qaydaların müəyyənləşdirilməsi müzakirələr predmeti olmuşdur. Agentliyin nümayəndəsi həmçinin "Ağdam" coğrafi adının Latviya ticarət nişanları tərəfindən istifadə edilməsinə etirazını bildirmişdir.

Bununla yanaşı, Aİ tərəfindən maliyyələşdirilən və 23 yanvar 2018-ci ildən həyata keçirilməyə başlanılan "Ümumdünya Ticarət Təşkilatına üzvlük danışıqlarında Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin ÜTT Departamentinə dəstək və potensialın gücləndirilməsi" layihəsi çərçivəsində Aİ-nın nümayəndəsi ilə onlayn rejimdə müzakirələr aparılmışdır. Onların nəticəsində və Agentliyin müvafiq müraciəti nəzərə alınaraq, layihənin təsdiq olunmuş İlkin Hesabatına əqli mülkiyyət sahəsini dəstəkləyən iki fəaliyyət salınmışdır: "Elektron KİV-lərdən istifadə zamanı istifadəçilərin identifikasiyası üçün proqram təminatı ehtiyaclarına dəstək" və "Əmtəə nişanları hüquqlarının pozulmasına qarşı Aİ-nın bazarda monitorinq təcrübəsinin öyrənilməsinə dəstək". Növbəti məsləhətləşmələr nəticəsində layihə çərçivəsində həmçinin "Müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarını, o cümlədən rəqəmli şəbəkələrdə kollektiv əsasda idarə edən ictimai birliklər (cəmiyyətlər) haqqında Azərbaycan Respublikasının Qanun" layihəsinin Avropa təcrübəsinin nəzərə alınması ilə hazırlanmasına dəstəyin göstərilməsi üçün edilmiş müraciət müsbət qarşılanmış, bu fəaliyyətin layihəyə daxil olunması məsələsi gündəmdədir.

Hesabat ilində həmçinin Agentlik tərəfindən Avropa Qonşuluq və Tərəfdaşlıq Alətinin Azərbaycan Respubli-

kası üzrə illik Fəaliyyət Proqramına uyğun olaraq "Rəqəmsal şəbəkələrdə əqli mülkiyyət hüquqlarının idarə olunması və qorunması məqsədilə Əqli Mülkiyyət Agentliyinin institusional potensialının gücləndirilməsi" (SICCA) Tvinninq layihəsinin reallaşdırılması ilə bağlı işlər davam etdirilmiş, müqabil tərəfin nümayəndələri ilə 10-a yaxın görüş keçirilmişdir.

Layihə 4 komponent üzrə həyata keçirilir və onun reallaşması nəticəsində aşağıdakı əsas nəticələrin əldə olunacağı gözlənilir:

- müəllif və əlaqəli hüquqların qorunması üzrə institusional potensialın artırılması (strukturun təkmilləşdirilməsi);
- Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin texniki cəhətdən institusional bazasının gücləndirilməsi (İKT infrastrukturunun təkmilləşdirilməsi və Milli Rəqəmsal Aqreqatorun yaradılması);
- qanunvericilik bazasının təhlil edilməsi;
- təlimlər və ictimaiyyətin məlumatlandırılması (maarifləndirilməsi) tədbirlərinin həyata keçirilməsi.

Hesabat ilində Agentlik beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində Nazirlər Kabinetinin tapşırıqları əsasında Müstəqil Dövlətlər Birliyinin (MDB) əqli mülkiyyət və onunla əlaqəli digər sahələr üzrə qərar və layihələrinin həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etmişdir.

İlk növbədə, "MDB-nin 2020-ci il dövrünə qədər iqtisadi inkişaf Strategiyasının üçüncü mərhələsinin (2016-2020-ci illər) həyata keçirilməsi üzrə Tədbirlər planı"na uyğun olaraq, diqqət əqli mülkiyyətin mühafizəsi və hüquqi qorunması sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə müasir informasiya texnologiyalarının tətbiqi, əqli fəaliyyət nəticələrinin təsərrüfat dövriyyə-

sinə cəlb olunmasının stimullaşdırılması, əqli mülkiyyət obyektlərinə hüquqların kommersiyalizasiyası mexanizmlərinin inkişafı, investisiyaların innovasiyalara və biliklər iqtisadiyyatının dayanıqlı inkişafına yatırılması, qeyri-maddi mədəni irsin qorunması və səmərəli istifadəsi məsələlərinin təşviqinə yönəlmişdir.

Agentlik səlahiyyətləri çərçivəsində həmçinin MDB-də hazırlanan layihələrin, o cümlədən "Müstəqil Dövlətlər Birliyinin 2030-cu il dövrünə qədərki iqtisadi inkişaf Strategiyası"nın birinci mərhələsinin (2021-2025-ci illər) həyata keçirilməsinə dair Tədbirlər Planı", MDB iştirakçı-dövlətlərin innovasiya fəaliyyəti sahəsində kadrların hazırlığı, yenidən peşə hazırlığı və ixtisaslarının artırılması sisteminin formalaşdırılması və inkişafı Konsepsiyası", "MDB üzv-dövlətlərinin saxta əmtəə nişanları və coğrafi göstəricilərin istifadəsinin qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Saziş" layihələri ilə əlaqədar müvafiq işləri həyata keçirmişdir.

Bununla yanaşı, qeyd edirik ki, Agentliyin MDB çərçivəsində fəaliyyətinin daha səmərəli həyata keçirilməsi və ölkəmizin əqli mülkiyyət sahəsində maraqlarının daha etibarlı müdafiəsi üçün Azərbaycanın bu təşkilat tərəfindən qəbul edilmiş bəzi sənədlərə qoşulması məsələsinə baxılmasına ehtiyac duyulur. İlk növbədə, bu, MDB dövlət başçıları tərəfindən imzalanmış 2010-cu il 19 noyabr tarixli "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası şuranın yaranması haqqında Saziş"ə və yaradılması nəzərdə tutulan "Elmi-texniki və innovasiya sahələrində əməkdaşlıq üzrə Dövlətlərarası Şura"ya dair sənədə aiddir.

Hesabat ilində Agentlik həmçinin ölkələrarası ikitərəfli əlaqələrini davam etdirmişdir. O cümlədən, Rusiya, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstanla ikitərəfli

hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyaların iclaslarının qərarlarının icra edilməsi ilə əlaqədar əməkdaşlıq haqqında müqavilələrin layihələri üzərində işlər davam etmişdir.

Hal-hazırda "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Əqli mülkiyyət üzrə Federal xidmət (Rusiya Federasiyası) arasında Anlaşma Memorandumu"n layihəsi tam hazırlanaraq paraflanmışdır. Bu sənədin Azərbaycan-Rusiya yüksəksəviyyəli görüşlərin biri çərçivəsində imzalanması planlaşdırılır.

Həmçinin "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" layihəsinin yekun versiyası Nazirlər Kabinetinə təqdim edilmiş, "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi və Qırğızıstan Hökuməti yanında Əqli mülkiyyət və innovasiyalar üzrə Dövlət xidməti arasında əqli mülkiyyət sahəsində qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum" layihəsi üzərində işlər yekunlaşmışdır.

Türkiyə ilə əlaqələrin normativ-hüquqi bazasının genişləndirməsi məqsədilə bu ölkənin Patent və Əmtəə Nişanları Qurumu (TÜRKPATENT) və Əqli Mülkiyyət Agentliyi arasında sənaye mülkiyyətinin qorunması haqqında Anlaşma Memorandumu layihəsi tərəflər arasında işçi qaydada razılaşdırılmışdır. Yaxın zamanlarda bu sənədə dair  aidiyyəti dövlət qurumlarının rəyi bildirilməsi üçün o, Nazirlər Kabinetinə təqdim ediləcəkdir.

Nazirlər Kabinetinin müvafiq  tapşırıqlarına əsasən, həmçinin Ukrayna, Belarus, İsrayıl, Xorvatiya, Litva, Birləşmiş Ərəb Əmirlikləri ilə əqli mülkiyyət sahəsində əməkdaşlıq məsələlərinin inkişaf etdirilməsi ilə əlaqədar işlər icra edilmişdir.

Agentliyin beynəlxalq əlaqələrin inkişafı ilə əlaqədar fəaliyyətinin daha bir istiqaməti müxtəlif dövlət və şirkətlərin nümayəndələri ilə əqli mülkiyyət sahəsinə aid gündəmdə olan praktiki və nəzəri məsələlərin müzakirə edilməsidir. Bu sırada 6 fevral tarixində Agentliyin İdarə Heyətinin sədri ABŞ-ın "Oracle Corporation" şirkətinin nümayəndələri ilə keçirdiyi görüşündə şirkətə məxsus proqram təminatından istifadə və sonrakı əməkdaşlıq məsələləri müzakirə olunub. "Oracle Corporation" şirkətinin nümayəndələri bu şirkətin istehsalı olan proqram təminatından lisenziyasız istifadə ilə mübarizə istiqamətində Agentliyin gördüyü işləri yüksək qiymətləndirmiş, növbəti mərhələlərdə birgə addımların atılmasının vacibliyi qeyd ediblər.

9 mart tarixində "Boston Consulting Group" şirkətinin direktoru Eduard Çerkinlə görüşdə Agentliyin İdarə Heyətinin sədri ölkəmizdə aparılan islahatların yeni mərhələsində dövlət başçısının həyata keçirdiyi siyasətə Agentliyin dəstək verdiyini, Azərbaycandakı institusional islahatlar nəticəsində bütövlükdə əqli mülkiyyət sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimlənməni və nəzarəti həyata keçirən, işçiləri dövlət qulluqçularına bərabər tutulan ixtisaslaşmış dövlət qurumunun fəaliyyətə başladığını bildirmişdir. O, Agentliyin qarşısında duran vəzifələrin dövlət başçısının innovasiyalı inkişafla bağlı yürütdüyü iqtisadi islahatlar siyasəti ilə müəyyən edildiyini və innovativ inkişaf siyasətinin seçilməsinin bilavasitə əqli mülkiyyət hüquqlarının qorunması ilə əlaqəli olduğunu diqqətə çatdırıb. O, Dünya Bankının "Doing Business-2020" hesabatında Azərbaycanın ən islahatçı 20 ölkə sırasında yer aldığını qeyd edərək, Agentlik tərəfindən yeni startapların yaranmasının təşviq edilməsi üçün müxtəlif tədbirlərin həyata keçirildiyini, eyni zamanda Microsoft, Trimble Tekla, Oracle kimi iri şirkətlərlə əməkdaşlıq edildiyini bildirib.

Görüş zamanı Agentliyin innovativ inkişaf sahəsində məqsədləri, ölkəmizin əqli mülkiyyət hüquqları sahəsində qanunvericilik bazası, Azərbaycanın dünya miqyasında innovasiya üzrə daha çox hansı sahələrdə ixtisaslaşması məsələləri müzakirə edilib. Bu xüsusda, Azərbaycanda neft, kimya sahələrində ixtiraların daha çox olduğunu vurğulayan Agentliyin İdarə Heyətinin sədri Agentllik tərəfindən universitet və elmi-tədqiqat müəssisələrinə əqli mülkiyyət siyasəti sahəsində dəstək verildiyini, Agentliyin tabeliyində Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzinin yaradılması üzrə işlərin görüldüyünü bildirmişdir.

Bunlarla yanaşı, hesabat ilində Agentliyin nümayəndələri ölkə xaricində onlayn rejimdə keçirilən beynəlxalq tədbirlərin, o cümlədən, 21 may tarixində Latviya Respublikasının Dövlət Patent İdarəsi, ÜƏMT, Avropa Patent İdarəsi və Avropa İttifaqı Əqli Mülkiyyət İdarəsi ilə birgə əməkdaşlıqda qurumun fəaliyyətinin 100-cü ildönümü münasibətilə “Əqli Mülkiyyət-İllüziyasız Baxış” adlı, 16-18 sentyabr tarixlərində ÜƏMT tərəfindən “Qlobal rəqəmsal kontent bazar” adlı, 20-21 oktyabr tarixlərində Moskva şəhərində Rusiya Federasiyasının Əqli Mülkiyyət üzrə Federal Xidməti (Rospatent) tərəfindən "Müasir şəraitdə əqli mülkiyyət sahəsinin transformasiyası" mövzusunda keçirilən konfransların iştirakçısı olmuşlar.

ÜƏMT, Avropa Patent İdarəsi, eləcə də 26 ölkə və Rusiyanın 59 bölgəsindən 600-dən çox nümayəndə iştirak edən sonuncu tədbirin plenar hissəsində çıxış edən Agentliyini İdarə Heyətinin sədri, ilk növbədə, Ermənistanın 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərini işğal etməsinə və ölkəmizə qarşı başladığı yeni hərbi təxribat məsələsinə xüsusi diqqət yetirib, bu ölkənin Azərbaycanın mülki əhalisinə qarşı aparılan siyasətini terror, vandalizm və barbarlıq kimi səciyyələndirmişdir.

Tədbirin əsas mövzusu ilə bağlı Agentliyin İdarə Heyətinin sədri əqli mülkiyyət institunun müasir və ənənəvi qavrayışlarının ziddiyyətli məqamlarını qeyd etmiş, vurğulamışdır ki, texnoloji dəyişikliklər mövcud əqli mülkiyyət landşaftına getdikcə daha kəskin təsir edəcəkdir. Bu baxımdan, əqli mülkiyyətin sistemli dərk edilməsi hüquqla yanaşı, bu fenomenin iqtisadiyyatı və sosiologiyasını də nəzərə almalıdır. Beləliklə, iqtisadiyyat (əqli mülkiyyət nəticələrinin kommersiyalaşdırılması) və sosiologiya (sosial effekt) bu institutun məcburi komponentlərinə çevrilirlər. O, iqtisadçıların həmrəy fikirlərinə əsasən, əqli mülkiyyətin dəyərinin ayrı-ayrı sahələrdə əhəmiyyətli dərəcədə dəyişdiyini qeyd edərək, həmçinin ixtiraların patentlə mühafizəsi, patent əldə etmək üçün müraciət materialları dərc edilərkən müəllif hüquqları pozuntularının aradan qaldırılması, innovasiyalarda əqli mülkiyyətin rolu və digər aktual nəzəri və praktiki məsələlərin həlli yolları barədə fikirləri ilə bölüşmüşdür.

Hesabat ilində Agentliyin beynəlxalq əlaqələr və informasiya şöbəsi tərəfindən Azərbaycan Respublikasının beynəlxalq əlaqələri ilə bağlı hökumətlərarası – 60, ölkənin nazirliklərinin və komitələrinin digər ölkələrin aidiyyəti qurumları arasında əlaqələrə aid – 28, MDB üzrə – 16, digər beynəlxalq qurumlarla bağlı – 19 layihə daxil olmaqla 150-dən artıq sənəd icra edilmişdir.

**10. İnformasiya mübadiləsi, təhlükəsizliyi və dərcetmə sahəsində görülmüş işlər.** 2020-ci il ərzində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin Aparatında və tabeli qurumlarda informasiya texnologiyası həlləri, informasiya mübadiləsi, informasiya təhlükəsizliyi, şəbəkə strukturunun qurulması ilə bağlı bir sıra işlər görülmüşdür.

Agentliyin rəsmi saytında (www.copat.gov.az) ƏMH sahəsində informasiya sisteminin tətbiqi, öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılması məqsədi ilə məlumatların yerləşdirilməsi, keçidlərin və səhifələrin yenilənməsi mütəmadi olaraq təmin olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2012-ci il, 654 saylı Fərmanına əsasən bütün dövlət qurumları elektron informasiya resurslarını Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin xüsusi qorunun Data Mərkəzində AZSTATENET hosting sistemində yerləşdirilməli olmasını nəzərə alaraq Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının saytı retk.az yenidən işlənib hazırlanmış və qeyd edilən Data Mərkəzində yerləşdirilmişdir.

**“PƏNAH” sisteminin təkmilləşdirilməsi.** “PƏNAH” sistemi Elektron Hökumət Portalına və Hökumət Ödəniş Portalına (HÖP) inteqrasiya olunmuş, iddiaçılar üçün “PƏNAH” sistemi üzərindən “Qeydiyyat modulu” hazırlanmışdır. Elekton Hökumət Portalı üzərindən daxil olan istifadəçilərin iddiaçı kimi qeydiyyatının təmin edilməsi üçün web platforma və yeni iddianın göndərilməsi üçün iddialara dair məlumat cədvəlləri işlənib hazırlanmışdır. Bundan sonra Elekton Hökumət Portalı üzərindən göndərilən məlumatlar Ümumi şöbənin təsdiqindən sonra “PƏNAH” sisteminə avtomatik yüklənəcəkdir. Sistemin təkmilləşdirilməsi ƏMH obyektlərinin qeydiyyatı sahəsində işlərin səmərəsinin artırılmasına imkan yaratmışdır.




**Elektron Hökumət Portalına inteqrasiya.** “Elektron Hökumət” virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət edir. 2020-ci ildə Agentliyin beş Xidməti Elektron Hökumət Portalına inteqrasiya olunmuşdur. Bu xidmətlər aşağıdakılardır:

- ✓ Əmtəə nişanı və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı və şəhadətnamənin verilməsi;
- ✓ Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin dövlət reyestrində qeydiyyatı;
- ✓ İxtira, faydalı model və ya sənaye nümunəsinin dövlət reyestrində qeydiyyata alınması və patent verilməsi;
- ✓ İxtira, faydalı model, sənaye nümunəsi və əmtəə nişanından istifadə hüququnun verilməsinə dair lisenziya müqavilələrinin dövlət reyestrində qeydiyyatı;
- ✓ İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və ya coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi.

Elektron Hökumət Portalında Agentliyin xidmətlərinin siyahısı:




**Dövlət Xidmətləri Portalı üzərindən** Agentlik 19 dövlət xidməti göstərir. Bu xidmətlərdən Apellyasiya şurasına etirazın (ərizənin) verilməsi, İxrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazənin verilməsi, Patent müvəkkillərinin attestasiyası xidmətləri istisna olmaqla, qalan xidmətlər avtomatlaşdırılıb və Elektron Hökumət Portalında fəaliyyət göstərir. Qeyd edilən xidmətlərin il ərzində fasiləsiz fəaliyyət göstərməsi üçün mütamadi nəzarət həyata keçirilir.

Dövlət Xidmətləri Portalında Agentliyin xidmətləri:




**Yeni Elektron Sənəd Dövriyyəsi Sisteminnin (ESDS) tətbiq olunması.** Agentlikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təqdim etdiyi Elektron Sənəd Dövriyyəsi Sisteminin (ESDS) tətbiqi olunması nəzərdə tutulmuşdur. Bununla bağlı “ESDS Test Modulu”-na giriş imkanı yaradılmış və istifadəçilər əlavə olunmuşdur. Əməkdaşlara ESDS ilə bağlı təlimlər keçirılmişdir. Test müddəti başa çatdıqdan sonra, Agentlikdə istifadə olunan Cybernet şirkətinin ESD sistemindəki bütün məlumatlar ESDS-nə miqrasiya olunacaqdır.

Elektron Sənəd Dövriyyəsi (ESDS) sistemi Kargüzarlıq üzrə aşağıdakı modulları özündə əks etdirir:

- Daxil olan sənədin qeydiyyatı və icrası;

- Xaric olan sənədin qeydiyyatı və icrası;
- Daxili sənədin qeydiyyatı və icrası;
- Əmr/Sərəncam/Qərar-ın qeydiyyatı və icrası;
- Elektron sənədin qeydiyyatı və icrası;
- Protokolun qeydiyyatı və icrası;
- Təstiqlənəcək sənədin qeydiyyatı və icrası;
- Hesabatlar və arayışlar;
- Kargüzarlıq sistemi üzrə daxili hesabatlar;
- Qiymətləndirmə sistemi üzrə daxili hesabatlar;
- Əmrlərin təsnifatı.

**ESDS ümumi görünüşü:**




**Sənaye mülkiyyətinin avtomatlaşdırılması sistemi – IPAS.** Azərbaycanda ƏM sisteminin avtomatlaşdırılması layihəsi üzrə tətbiq olunan IPOA (Intellectual Property of Azerbaijan) sistemindən ÜƏMT-nın təqdim etdiyi IPAS (Industrial Property Automation System) sisteminə əmtəə nişanları üzrə miqrasiya prosesi yekunlaş-

mışdır. Pandemiya ilə əlaqədar IPAS sisteminə keçid online şəkildə aparılır. Bu sistemin istifadəçi profilləri uyğunlaşırılmış, daxil olan və xaric olan sənədlər (qərar, sorğu, bildirişlər və s.) sistemə əlavə olunmuşdur. Sistemin müəyyən müddət "Production" (Emal olunmuş) versiyasının sınaq mərhələdə işləməsi, yaranan çətinliklərin, boşluqların aradan qaldırılmasından sonra sistemin real rejimdə işə başlaması nəzərdə tutulmuşdur.

IPAS sisteminin əsas funksionallıqları aşağıdakılardır:

- ✓ IP ofisinin hüquqi və inzibati proseslərini avtomatlaşdırmaq üçün tənzimlənə bilən iş axınlarını dəstəkləyir.
- ✓ Xidmətlərə daxil olan bütün sorğuları (yeni tətbiqetmə, sonrakı sənədlər, yenilənmə, təyinat, düzəliş və s.) və bütün gedən bildiriş və sorğuları dəstəkləmək üçün konfiqurasiya edilə bilər.
- ✓ Rəsmi Qəzet / Jurnalın idarə edilməsi və formatlaşdırılması üçün yayımın idarə olunması funksiyaları,
- - Fonetik, mətn və təsnifata əsaslanan axtarışlar daxil olmaqla çevik və güclü axtarış vasitələri (Nice, IPC, Vienna və ya Locarno təsnifat sistemlərindən istifadə etməklə),
- - Bildirişlərin və ya milli mərhələ girişlərinin qəbulu və işlənməsi üçün WIPO Global IP sistemləri ilə inteqrasiya olunmuşdur.
- ✓ Həm məlumat saxlama, həm də ekran üçün bir çox dildə və dil skriptləri (sağdan sola yazıları daxil olmaqla) dəstəkləyir.
- ✓ İstifadəçi rolu ilə funksiyalara və hərəkətlərə girişi idarə etmək üçün təhlükəsiz modeldir.

**"AZCLOUD" data mərkəzinə serverlərin köçürülməsi.** "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 3 iyun

2019-cu il 718 nömrəli fərmanına uyğun olaraq və Elektron xidmətlərin dayanıqlığını təmin etmək məqsədi ilə Nəzarət Markalarının online sifariş sistemi və Qeydiyyatdan keçmiş əsərlər üzrə axtarış sisteminin serverləri "AzInTelecom" MMC tərəfindən "Hökumət buludu"nun (G-cloud) yaradılması məqsədi ilə istismara verilmiş "AZCLOUD" data mərkəzinə köçürülmüşdür.

**Çağrı Mərkəzinin qurulması.** Müəllif hüquqları və sənaye mülkiyyəti obyektləri ilə bağlı yaranmış sualların, təklif və şikayətlərin daha operativ şəkildə cavablandırılması məqsədi ilə Agentlikdə Çağrı Mərkəzi yaradılmışdır. Çağrı Mərkəzində vətəndaşların müraciətlərinin cavablandırması ixtisaslaşmış operatorlar tərəfindən icra olunması nəzərdə tutulmuşdur. Operator işçi yeri (paneli) Agentliyin texniki tələblərinə və istəklərinə uyğun hazırlanmışdır. Yeni fəaliyyətə başlayan operatorun da sistemdən qısa müddətdə istifadəsi çox asanlıqla baş verir. Hazır şablon məlumatlardan istifadə əsasında müraciətçilərə qısa zaman kəsiyində telefon vasitəsilə dürüst və səlis xidmət göstərmək mümkündür.

Çoxpilləli və dinamik İVR sistemi sayəsində zəng edən vətəndaşlar seçimlərini edərək birbaşa sorğularını cavablandıracaq operatorla əlaqəyə keçə bilərlər. Bundan əlavə İVR üzərindən zəng edən vətəndaşlara növbədə gözləmə müddəti barədə məlumat vermək və ya növbədə olduğu müddətdə Agentliyin anonslarını dinlətdirmək mümkündür.

Çağrı Mərkəzi Agentliyin 960 Qaynar xəttinə yönləndirilmişdir. Vətəndaşlar 960 qısa nömrəsini yığmaqla Agentliyin fəaliyyət göstərdiyi xidmətləri seçib, operatorlara müraciət edərək onları maraqlandıran suallara daha tez və dolğun cavab ala biləcəklər.

**IP telefoniya sisteminin yenilənməsi.** Agentlikdə istifadə olunan Cisco IP telefoniya sisteminin lisenziya sayı bitdiyindən yeni Grandstream IP telefoniya sisteminə keçid həyata keçirilmişdir. Beynəlxalq və şəhər nömrələrinə birbaşa zənglərin yığıla bilməsi üçün IP telefoniya sistemi Delta Telekom tərəfindən alınmış SIP nömrəyə bağlanmışdır. Çoxxətli SIP nömrə vasitəsi ilə kütləvi zənglərin qəbulu mümkündür. IP telefoniya Çağrı Mərkəzinə inteqrasiya olunmuşdur. Buna görə də Çağrı Mərkəzinə gələn zəngləri birbaşa Agentliyin əməkdaşlarına yönləndirmək imkanı vardır.

**İnformasiya Təhlükəsizliyinin təmin olunması.** İnformasiya Təhlükəsizliyinin təmin olunması məqsədilə Şöbə tərəfindən əməkdaşlar mütəmadi olaraq məlumatlandırılır, məlumat mübadiləsi üçün istifadəçilər üçün müəyyən olunmuş icazələrə uyğun olaraq ümumi paylaşılan qovluqlarda Read-Write icazələrin mexanizminə nəzarət olunur, şəbəkəyə daxili və xarici müdaxilə halları daim nəzarətdə saxlanılır.

**Dərcetmə sahəsində görülmüş işlər**. Hesabat ilində ƏMA-nın müvafiq bölməsi tərəfindən bir çox kitab və broşürlərin cap olunması həyata keçirilmişdir. O cümlədən:

- K.İmanov. Azərbaycanın texnoloji profili və dünyanın qabaqcıl texnoloji sahələri (patent analitikası);
- K.İmanov. Əqli mülkiyyət və elmi-tədqiqat işlərinin kommersiyalaşması;
- K.İmanov. İnnovasiyaların yaradılması, tətbiq edilməsi və gəlir gətirməsi üçün nə lazımdır (*ekspert qiymətləndirmələri və KOM-lərin sosioloji tətqiqinin materialları*)?

(К.Иманов. Что нужно, чтобы инновации рождались, внедрялись и приносили доход? *(экспертные*

*оценки и материалы социологических исследований МСП)*;

- K.İmanov. Əqli mülkiyyət müasir mərhələdə (hüquqların qorunması və təminatı)
- К.Иманов. Интеллектуальная собственность сегодня и завтра;

Agentliyin İdarə Heyətinin sədri Kamran İmanovun rəhbərliyi ilə aşağıdakı kitabçalar hazırlanmışdır:

- Интеллектуальная собственность в цифровую эпоху: опыт Азербайджана;
- Azərbaycanda ixtiraçılıq və patent analitikası;
- Изобретательство и патентная аналитика в Азербайджане;
- Azərbaycanda sənaye nümunələrinin, coğrafi göstəricilərin və əmtəə nişanlarının analitik icmalı;
- Аналитический обзор промышленных образцов, географических указаний и товарных знаков в Азербайджане.

Həmçinin “Əqli mülkiyyət” jurnalı buraxılmışdır.

## 11. Kadrların peşəkarlığının artırılması, vətəndaşların müraciətlərinə baxılması və kargüzarlığın təşkili.

**11.1. Kadrlarla iş və onların peşəkarlığının artırılması.** Hesabat ilində kadrlarla iş və işə qəbulla bağlı prosedurlar dövlət qulluğu sahəsini tənzimləyən normativ hüquqi aktların və Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq aparılmışdır.

Agentliyin Aparatına 4 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinə 2 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinə 10 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasına 4 nəfər işə qəbul edilmiş, Agentliyin Aparatından 3 nəfər, Agent-

liyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzindən 2 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzindən 4 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasından 3 nəfər öz xahişi ilə işdən azad olunmuşdur.

Hesabat ilinin sonuna Agentliyin Aparatı və tabeliyində olan qurumlar üzrə işçilərin cəmi sayı 264 nəfər, o cümlədən Agentliyin Aparatında 68 nəfər, Agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzində 28 nəfər, Agentliyin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzində 63 nəfər, Agentliyin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasında isə 105 nəfər olmuşdur.

Hesabat dövründə 8 nəfərə müvafiq ixtisas dərəcələri verilmişdir.

Respublika üzrə karantin rejiminin tətbiqi ilə əlaqədar olaraq inzibati dövlət qulluğu vəzifələrinə qəbul üçün keçirilən müsahibələrin onlayn qaydada təşkili təmin edilmişdir. Hesabat ili ərzində şöbə əməkdaşları gender bərabərliyi üzrə məsul şəxslər üçün təşkil olunan iki günlük təlim kursunda, gender əlaqələndiriciləri üçün onlayn təlimdə və dövlət qulluğunda səriştə modelinin tətbiqi ilə bağlı onlayn konfransda iştirak etmişdirlər.

Agentlik üzrə əmr layihələrinin hazırlanması, verilmiş əmrlərin təyinatı, aidiyyəti üzrə çatdırılması və onların icrasına nəzarət təmin edilmiş, həmçinin kadrlarla bağlı yenilənmiş məlumatların mütəmadi olaraq Dövlət Qulluqçularının Reyestri İnformasiya Sisteminə daxil edilməsi təmin edilmişdir.

Hesabat ilində kadrların peşəkarlığının artırılması istiqamətində fəaliyyət davam etdirilmiş, Agentliyin 2 əməkdaşı ÜƏMT-nın Əqli mülkiyyət üzrə ümumi kursunu müvəffəqiyyətlə bitirib sertifikat almış, ümumilikdə bu Təşkilat tərəfindən təşkil olunan onlayn seminar və görüşlərdə

Agentliyin 7 əməkdaşı iştirak etmişdir. Bununla yanaşı, Agentliyin 5 əməkdaşı Ümumdünya Əqli Mülkiyyət Təşkilatı tərəfindən təşkil edilən "Qlobal rəqəmsal kontent bazarı" mövzusunda onlayn konfransda, 2 əməkdaşı isə “Aİ-Azərbaycan 2020-2022” biznes forumunda onlayn rejimdə iştirak etmişlər.

Bununla yanaşı, Agentliyin Aparatının və tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin mütəxəssisləri aşağıdakı kurs, seminar və tədbirlərdə iştirak etmiş və peşəkarlıq səviyyələrini artırmışlar:

- “Ümumdünya Əqli Mülkiyyət Təşkilatının xidmətləri və təşəbbüsləri” mövzusunda vebinar (24 noyabr);
- Yaponiyanın Patent İdarəsi tərəfindən təşkil olunmuş “Kontrafaksiya əleyhinə tədbirlər” mövzusunda onlayn təlim kursu ( 2-20 noyabr) ;
- Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən AR Təhsil Nazirliyinin dəstəyi ilə ixracla məşğul olan və gələcəkdə bu fəaliyyətlə məşğul olmaq niyyəti olan kadrların bilik və bacarıqlarının artırılması ilə əlaqədar təlim proqramı ilə bağlı onlayn görüş (15 dekabr).

**11.2. Kargüzarlığın təşkili.** Hesabat dövründə Agentliyə 2012 sənəd daxil olmuşdur. Daxil olmuş sənədlərin 1251-i icra olunmuş, 156-sı icradadır, 605-i isə məlumat xarakterlidir.

Bundan əlavə, Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin *mühafizəsi* sahəsində mübahisələrə baxan Apellyasiya Şurasına 99 müraciət, bilavasitə əsərlərin qeydiyyatı ilə bağlı 495 ərizə, əmtəə nişanının qeydiyyatı ilə bağlı 2289 iddia sənədi, faydalı modelin qeydiyyatı ilə bağlı 41 iddia sənədi, sənaye nümunəsinin qeydiyyatı ilə bağlı 17 iddia sənədi, ixtiranın qeydiyyatı ilə bağlı 109 iddia sənədi və ixtiraların beynəlxalq qeydiyyatı ilə bağlı 26 iddia sənədi daxil olmuşdur.

Kargüzarlıq işləri Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”a uyğun aparılmışdır.

Hesabat dövründə Agentlikdən 984 sənəd göndərilmişdir. Bundan əlavə, 183 sənəd bilavasitə Agentliyin *sənaye mülkiyyətinin* mühafizəsi sahəsində mübahisələrə baxan *Apellyasiya* Şurasına daxil olan sənədlərlə bağlı, 631 sənəd isə Agentliyə daxil olmuş iddia sənədləri ilə bağlı göndərilmişdir.

**11.3. Vətəndaşların qəbulu.** Vətəndaşların qəbulu və qəbulla əlaqədar kargüzarlığın aparılması üzrə iş “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası”na uyğun həyata keçirilmişdir.

Agentliyin rəhbərliyi və vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş vətəndaşların problemlərinin operativ şəkildə həll edilməsi üçün Agentliyin səlahiyyətləri çərçivəsində zəruri tədbirlər görülmüşdür.

Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizənin təşkil edilməsini təmin etmək və icrasına ciddi nəzarət edilməsi məqsədilə Nazirlər Kabinetinin tapşırıqlarına uyğun olaraq, 2020-ci il mart ayından Əqli Mülkiyyət Agentliyinin bütün struktur bölmələrində vətəndaşların qəbulu məhdudlaşdırılmışdır. Bununla belə, Agentliyin elekt-

ron poçt ünvanına daxil olan müraciətlərin qəbulu və Elektron Hökumət Portalı vasitəsilə vətəndaşlara xidmətlərin elektron şəkildə göstərilməsi davam etdirilmişdir.

Hesabat dövründə vətəndaşlardan birbaşa Agentliyə 626 müraciət (onlardan 337 elektron qaydada), 17 müraciət isə aidiyyəti baxılmaq üçün digər təşkilatlardan daxil olmuşdur (cəmi 643). Müraciətlərin 572-si müsbət həll olunmuş, 46-na müvafiq izahat verilmiş, 7-si əsassız sayılmış, 18-i hazırda icradadır.

Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılmasına dair illik hesabat formaları hər il nəzərdə tutulduğu qaydada Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilir.

**12. Kollektiv idarəetmə sahəsində aparılan işlər.** 2020-ci ildə müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının idarə edilməsi sahəsində fəaliyyət göstərən kollektiv idarəetmə təşkilatlarına hər cür metodiki və hüquqi yardım göstərilmiş, fəaliyyət sahələri üzrə qarşılaşdıqları problemlərin həllində köməklik edilmiş, bütövlükdə kollektiv idarəetmə sahəsi Agentliyin fəaliyyətində diqqət mərkəzində saxlanmışdır.

Bununla yanaşı, bu sahədə mövcud olan çatışmazlıqlar və kollektiv idarəetmə təşkilatlarının, xüsusən musiqili əsərlərin müəlliflərinin əmlak hüquqlarını kollektiv əsasda idarə edən "Azərbaycan Müəllifləri" İctimai Birliyinin fəaliyyətində yol verilən nöqsanlar, İctimai Birliyin fəaliyyətinin şəffaf və səmərəli olmaması, infrastrukturunun köhnə və rəqəmsal dövrün tələblərinə cavab verməməsi dəfələrlə Birliyin rəhbərliyinin nəzərinə çatdırılmış, həmçinin İctimai Birliyin mövcud qanunvericilik aktlarına uyğun olaraq, akkreditasiyadan keçməsi tələb edilmişdir. Buna baxmayaraq, sözügedən İB lazımi nəticə çıxarmamış, akkreditasiya üçün tələb olunan sənədləri bu günə qədər

təqdim etməmişdir. Həmçinin İB son illər fəaliyyətinin yekunları barədə hesabatlarını davamlı olaraq ya çox gec və keyfiyyətsiz təqdim etmiş, ya da ümumiyyətlə, təqdim etməmişdir. Bununla əlaqədar, dəfələrlə həmin ictimai birliyin rəhbərliyinə xəbərdarlıq məktubları göndərilmişdir.

Audiovizual əsərlərin və fonoqramların şəxsi məqsədlər üçün gəlir götürmədən surətinin çıxarılmasına görə qonorarın yığılması sahəsində əməkdaşlıq edilməsi məqsədi ilə ötən il imzalanmış Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi ilə "Azərbaycan Professional Kinorejissorlar Gildiyası" arasında əməkdaşlıq sazişinə uyğun olaraq, birgə fəaliyyət istiqamətləri müəyyən edilmiş və həmin təşkilatla bir sıra tədbirlər həyata keçirilmişdir.

Kollektiv idarəetmə təşkilatları tərəfindən 2020-ci ilə görə müəlliflər üçün yığılmış qonorarın həcmi barədə müvafiq informasiyalar təqdim edilmədiyinə görə, onların il ərzində yığdıqları qonorar barədə məlumat bu Hesabatda öz əksini tapmamışdır.

Bununla yanaşı, kollektiv idarəetmə təşkilatları ilə əhatə olunmayan sahələrdə Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflərin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi və istifadəyə görə onlar üçün qonorar yığılması işi təşkil olunmuş, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi, kollektiv idarəetmə təşkilatları ilə dövlət orqanları arasında əlaqələrin inkişafı, müəllif-hüquq subyekti kimi onların fəaliyyətinə dövlət nəzarətinin formaları və hüquqi əsaslarının təkmilləşdirilməsi istiqamətlərində fəaliyyət davam etdirilmişdir.

**Müəllif qonorarı.** 2020-ci ildə müəlliflərin əmlak hüquqlarının idarəçiliyini təmin etmək nəticəsində (teatr-tamaşa təşkilatlarında əsərlərdən istifadəyə görə) 35063 manat müəllif qonorarı yığılmış və təyinatı üzrə bölgüsü aparılmışdır. Bunlardan Azərbaycan müəlliflərinə 24468

manat, xarici müəlliflərə 4552 manat, Dövlət varidatı olan əsərlərə görə 1049 manat, gəlir vergisi 4689 manat, bank xidməti 306 manat təşkil edir. Eyni zmanda qonorar hesablanan yerli və xarici müəlliflərin adları, soyadları və mənsub olduqları ölkələr barədə məlumatların dəqiqləşdirilməsi istiqamətində mütəmadi iş aparılmışdır.

Agentliyin hesabına daxil olmuş 33760 manat müəllif qonorarından köçürmə yolu ilə 31341 manat Azərbaycan müəllifllərinə, 1357 manat xarici müəlliflərə ödənilmiş, qonorardan tutulmuş gəlir vergisi 7534 manat və dövlət varidatına görə 3104 manat vəsait Dövlət büdcəsinə, 306 manat bank xidməti üçün köçürülmüşdür.

Son illər xidmət edilən müəlliflərin sayında davamlı olaraq artım müşahidə olunmuşdur. Məsələn, 2012-ci ildə xidmət göstərilən müəlliflərin sayı 3188, 2013-cü ildə 3190, 2014-cü ildə 3200, 2015-ci ildə isə 3231,2016-cı ildə 3322, 2017-cı ildə 3348 2018-cı ildə 3380 nəfər,2019-cu ildə 3430 nəfər, 2020-ci ildə isə 3470 nəfər olmuşdur.

2020-ci ildə Agentliyin qonorar yığımını əhatə etdiyi istifadəçi təşkilatlarda – Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeçiliyində olan teatr-tamaşa müəssisələrində müəllif qonorarının hesablanması və ödənilməsi üzrə müəyyən iş aparılmışdır. Göstərilən dövr ərzində əsərlərdən istifadəyə görə qonorar ödəməyən, həmçinin qonorar üzrə borc qalıqları olan teatr-tamaşa müəssisələri ilə əlaqə saxlanılmış, müəllif qonorarının düzgün hesablanması və vaxtında Agentliyin hesabına köçürülməsini təmin etmək üçün operativ araşdırmalar aparılmış, müvafiq üzləşmə aktları tərtib edilmiş, borc qalıqlarının miqdarı dəqiqləşdirilmişdir.

2020-ci ilin statistik göstəriciləri qonorar məbləğinin və qonorar hesablanmış müəlliflərin sayının artdığını göstərir. Hesablanmış qonorar barədə 390 nəfər müəllifin

müraciətlərinə baxılmış, müvafiq izahatlar verilmişdir. Qonorar hesablanmış 390 nəfər müəllifə çatacaq qonorar məbləğlərinin Visa elektron kartları vasitəsi ilə verilməsi təmin edilmişdir.

**13. Agentliyin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələri.** Azərbaycan Respublikası Prezidentinin büdcə vəsaitlərinə münasibətdə verdiyi tapşırığa uyğun olaraq, hesabat ilində büdcə vəsaitləri qənaətlə xərclənmişdir. Belə ki, 2020-ci ildəƏqli Mülkiyyət Agentliyinin tədbirlərinin həyata keçirilməsi ilə bağlı Aparatı üzrə insan resurslarının idarə edilməsi və saxlanılması və tabeliyində olanRespublika Elmi-Texniki Kitabxanasının saxlanması, fəaliyyətinin təmin edilməsi üçün dövlət büdcəsində nəzərdə tutulan 2935000 manat vəsait daxilində aparılmışdır.

İllik smeta xərclərinə uyğun olaraq bu vəsaitin 1321580 manatı əmək ödənişlərinə (o cümlədən, 1051436 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 13391 manatı ştatdankənar işçilərin əmək haqqının ödənilməsinə, 245590 manatı sair pul ödənişlərinə, 11163 manatı müavinət və iş qabiliyyətinin itirilməsinə görə), 294317 manatı DSMF-na ayırmalara, 6452 manatı bank xərclərinə, 146073 manatı isə Agentliyin Aparatının saxlanması üçün digər işlərə xərclənmişdir. Agentliyin Aparatı üzrə cəmi faktiki büdcə xərcləri 1768422 manat olmuşdur.

Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanası 100 ştat vahidinə malikdir və Kitabxana “Mədəniyyət haqqında”, “Kitabxana işi haqqında” Azərbaycan Respublikası qanunlarını və həmin qanunlardan irəli gələn qanunvericilik aktlarını, qərar, əmr, sərəncamları rəhbər tutaraq fəaliyyət göstərir və onun fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

Kitabxananın illik smeta xərclərinə uyğun olaraq ayrılmış vəsaitin 631812 manatı əmək ödənişlərinə (o cümlədən, 514811 manat ştatda olan işçilərin əmək haqqının ödənilməsinə, 112679 manat sair pul ödənişlərinə, 4322 manat müavinət və iş qabiliyyətinin itirilməsinə görə), 140467 manatı DSMF-na ayırmalara, 3293 manatı bank xərclərinə, 61426 manatı Kitabxananın saxlanması üçün digər işlərə xərclənmişdir. Cəmi faktiki büdcə xərcləri 836997 manat olmuşdur.

Hesabat ili ərzində cəmi 2 605419 manat xərclənmiş, 329581 manat qənaət edilən qalıq məbləğ olmuşdur.

Əldə olunan vəsait hesabına Əqli Mülkiyyət Agentliyinə cəmi daxilolma 2020-ci ildə 3 286 387 manat olmuşdur. O cümlədən: Madrid Sazişinə uyğun olaraq ÜƏMT-nın Maliyyə Xidmətindən Agentliyin hesabına 2020-ci il üzrə toplanılmış maliyyə vəsaitinin köçürülməsi ilə bağlı 1 403 250 manat (727826.87 chf), Haaqa Sazişinə uyğun olaraq isə 24108 manat (12504 chf) vəsait daxil olmuşdur.

Azərbaycan ərazisində qüvvədə olan Avrasiya patentlərinin qüvvədə saxlanlması üçün APT-nın Avrasiya Patent Bürosundan təqdim edilmiş Reyestr məlumatları üzrə Agentliyin hesabına daxil olan illik rüsumların məbləği 1 162 251.63 manat (52163470.35 rub) təşkil etmişdir.

"İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərə görə" 696777 manat təşkil etmişdir.

Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumu üzrə dövlət rüsumunun ödəyicisinin yazılı müraciətinə əsasən 11885 manat məbləğin ödəyicilərin hesablarına qaytarılması təmin edilmişdir.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin əldə olunan vəsait hesabına cəmi yekun xərci 2020-ci ildə 2185856.97 manat olmuşdur. O cümlədən:

Aparatının işçilərinə (mükafat, maddi yardım, əmək haqqına əlavələr və onlardan məcburi tutulmalar, işçilərin icbari sığortası) 468890.96 manat, ezamiyyə xərclərinə 98 manat xərclənmişdir. Agentliyin Mərdanov qardaşları, 124 ünvanında yerləşən daşınmaz əmlakı ilə bağlı xərclər 123695.47 manat olmuşdur (o cümlədən: mühafizə xərci – 86375.19 manat, enerji xərci – 18126 manat, qaz haqqı – 8807.87 manat, su haqqı – 5031.04 manat, dezinfeksiya xərcləri 3589.77 manat, lift xidməti 1180.00 manat, kommunal xidmət – 580.60 manat). İl ərzində Koronavirusla Mübarizəyə Dəstək Fonduna – 100 000 manat, Silahlı Qüvvələrə Yardım Fonduna – 100 000 manat, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu – “YAŞAT” Fonduna 36000 manat, proqram təminatının yenilənməsinə 23900 manat, avadanlıq alınmasına 3718.20 manat, inventar alınmasına – 4950 manat, digər maşın və avadanlığın alınmasına 4576.31 manat, qəzet və jurnallara abunə yazılmasına 9147.50 manat, dəftərxana və təsərrüfat xərclərinə – 12888.35 manat xərclənmişdir. Nəqliyyat vasitələri ilə bağlı xərclər 35004.45 manat (avtomobil sığortası, təmiri, dayanacaq haqqı, yanacaq), kommunal xidmətləri üzrə xərclər (Hökumət evi) 34200.00 manat, cari təmir xərcləri 3162.40 manat, Rabitə ilə bağlı xərclər, internet abunəsi 28664.62 manat, poçt və yük daşıma xidməti üzrə xərclər 2662.40 manat, digər xərclər (suvenirlər, kitab alışı və s. xərclər (Audit yoxlaması, dövlət qulluğu üzrə müsabiqə və müsahibə mərhələsi, Texniki pasport ucun, rüsum ödənişi və geri qaytarılan və s.) 11359.27 manat, bank xərcləri 3494.24 manat və s. təşkil etmişdir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 30 iyul 2018-ci il tarixli 222 nömrəli Fərmanının 4.8-ci bəndinə uyğun olaraq, Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin və Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin 2020-ci il üçün saxlanma xərcləri Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsaiti hesabına ödənilmişdir.O cümlədən:

Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin saxlanılma xərcləri – 280418.66 manat, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin saxlanılma xərcləri – 899026.14 manat təşkil etmişdir.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.